# DÜŞÜNƏN İNSAN

№ 13 - Sentyabr 2012 - 2 AZN



# DÖVLƏTÇİLİYİN QORUNMASINDA MƏNƏVİ DƏYƏRLƏRİN ROLU

- İnsan bədənindəki acizliklərdən biri: Allergiya
- Quranın elmi möcüzələrinin nümunələri
- İslam əxlaqının möminlərə qazandırdığı keyfiyyət anlayışı
- İslamda düşüncə azadlığı
- Məşhur fizik Mitio Kakunun müsahibəsi

## 2 FİLM HƏDİYYƏ

ATOM MÖCÜZƏSİ

ŞEYTANIN SİLAHI: ROMANTİZM

# Düşünən İnsan jurnalının yeni saytı




# www.dushuneninsan.com

Artıq bütün əvvəlki sayların məqalələrini rahatlıqla oxuya bilər, Jurnalı PDF formatında yükləyə bilərsiniz.

facebook.com/dusunen.insan.jurnali



DÜŞÜNƏN İNSAN - Sentyabr 2012;
Elmi-kütləvi, mənəvi-psixoloji jurnal
Təsisçi və redaktor: Ziya Kazımov
Kompyuter dizaynı: Mirağa Niftəli
Ünvan: Bakı şəhəri, M.Şərifzadə küçəsi 78/57
Telefon: (050) 4662020; E-mail:admin@dusuneninsan.info
"Düşünən İnsan" jurnalı Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.Qeydiyyat No 3418

# DÜŞÜNƏN İNSAN

# içindəkilər




| | |
|---|---|
| İlham Əliyev İslam dini haqqında | 3 |
| Elmi-texnoloji xəbərlər | 4 |
| İslam dünyasında keçən ay | 6 |
| Qidanı necə həzm edirik? | 8 |
| Bədənimizi qoruyan zülallar öz hüceyrələrimizə necə zərər vermirlər? | 13 |
| Sizi Yaradanı nə qədər tanıyırsınız? | 16 |
| Allah'ın imtahan sənətindəki incəliklər | 22 |
| Bir ayə, bir açıqlama | 29 |
















# içindəkilər




| | |
|---|---|
| Darvinistlərin etirafları | 39 |
| Canlılar danışmadan necə xəbərləşirlər | 40 |
| İslamda düşüncə azadlığı | 52 |
| 10 min il əvvəl professional üsullarla diş müalicələri və beyin əməliyyatları aparılırdı | 59 |
| Allaha qulluqda və səmimilikdə qətiyyətli olmaq | 60 |
| Fosillər təkamülü təkzib edir | 64 |




















**İlham Əliyev: “İslamı terror ilə bağlamaq cəhdləri böyük günahdır, böyük cinayətdir”**

Cənab Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul edib. Prezident İlham Əliyev bildirib ki, bayram ərəfəsində müsəlman ölkələrinin Azərbaycandakı səfirləri və diplomatik nümayəndəliklərinin rəhbərləri ilə görüş artıq ənənəyə çevrilib. İldən-ilə Azərbaycanda müsəlman ölkələrinin səfirliklərinin sayının artdığını diqqətə çatdıran dövlətimizin başçısı qeyd edib ki, müsəlman ölkələri ilə sıx əməkdaşlığımız var. Hazırda bu əlaqələr ikitərəfli formatda bütün sahələri əhatə edir və daha da genişlənir.

Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsində müsəlman ölkələrinin dəstəyini qeyd edən dövlət başçısı bildirib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində də rəsmi Bakı daim müsəlman ölkələrinin dəstəyini hiss edir.

**Prezident İlham Əliyev İslam aləminin həmrəyliyinin əhəmiyyətinə toxunub**

Dövlət başçısı bildirib ki, Azərbaycan İslam həmrəyliyinə böyük əhəmiyyət verir və Bakının da İslam mədəniyyətinin paytaxtı elan edilməsi İslam aləminin ölkəmizə verdiyi böyük dəstəkdir. “İslam dəyərləri bizim üçün əzizdir, doğmadır. Bizim milli dəyərlərin təməlində İslam dəyərləri dayanır”, – deyən Prezident İlham Əliyev İslam aləminin həmrəyliyinin əhəmiyyətinə toxunub. Azərbaycan Prezidenti bütün müsəlman ölkələrinə sülh arzulayıb, Yaxın Şərqdə gedən proseslərlə bağlı dövlətimizin Ərəb Liqasının mövqeyini dəstəklədiyini vurğulayıb. Dünyada İslam haqqında yayılan şayiələrə qarşı birgə mübarizə aparmağın önəminə də toxunan Prezident deyib: “İslamı terror ilə bağlamaq cəhdləri böyük günahdır, böyük cinayətdir”.



# İslam Dünyasında



## Bakıda yeni məscid kompleksi tikiləcək

Bununla bağlı cənab prezident İlham Əliyev müvafiq sərəncam imzalayıb. Sərəncama əsasən, Bakı Şəhər İcra Hakimiyyəti yeni məscid kompleksinin tikintisi üçün Binəqədi rayonu ərazisində torpaq sahəsinin ayrılmasını təmin etməlidir. Yeni məscid kompleksinin layihələndirilməsi və tikintisi üçün Prezidentin ehtiyat fondundan Bakı Şəhər İcra Hakimiyyətinə ilkin olaraq 10 milyon manat ayrılıb. Maliyyə Nazirliyinə bu məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etmək, Nazirlər Kabinetinə isə digər məsələləri həll etmək tapşırığı verilib.



## Rusiyada ilk İslam TV fəaliyyətə başlayıb

Rusiyada ölkənin tarixində ilk dəfə olaraq rus dilində yayımlanan İslam televiziyası fəaliyyətə başlayıb. Hər gün 24 saat efirdə olacaq "Əl-RTV" kanalının açılmasında məqsəd ölkədə ərəb və ya tatar dillərini bilməyən Rusiya müsəlmanları üçün nəzərdə tutulub. Kanalın açılışı ilə bağlı açıqlama verən baş redaktor Rüstəm Arifcanov bildirib ki, belə bir kanalın fəaliyyətə başlaması çoxdan gözlənilən hadisə idi. Onun sözlərinə görə Rusiyada İslam kanalı az olsa da, onun artırılması müsəlmanlar üçün faydalı olacaq. "Təəssüf ki, Rusiyada İslam dini ilə bağlı çox az sayda televiziya proqramları var. Kanalımızda bu cür proqramlar yaratmağa imkan olacaq. Daha sonra onların satışını da təşkil edəcəyik. İslam dini qaranlıq və ya anlaşılmaz bir din deyil. İslam bizə həyatımızı yüngülləşdirmək üçün göndərilib", - deyə R.Arifcanov sözlərini ifadə edib.





## Moskvada 170 mindən çox müsəlman bayram namazı qılıb

Moskvada Ramazan bayramı namazına 170 min müsəlman qatılıb. Eyni zamanda, Rusiya Müftilər Şurası isə paytaxtda namaza 190 min nəfərin qatıldığını ehtimal edir. Şəhərdə əmin-amanlığı təmin etmək üçün 3 min polis cəlb edilib. Rusiya DİN-in məlumatına görə, hər hansı bir hadisə baş verməyib.





## Leyla Əliyeva adından Moskvada iftar süfrəsi açılıb

Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyi Rusiya Müftilər Şurasının Moskva hökumətinin dəstəyi ilə həyata keçirdiyi "Ramazan çadırı" xeyriyyə və mədəni-maarif layihəsində iştirak edib. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın adından iftar süfrəsi açılıb və Azərbaycan Günü keçirilib. Azərbaycan diasporunun nümayəndələrinin, gənclərin, müxtəlif xalqların təmsilçilərinin iştirakı ilə təşkil olunmuş gecənin əvvəlində "İxlas" Fondunun sədri Anas Məmmədov müqəddəs Ramazan ayının əhəmiyyətindən və oruc tutmağın faydasından danışıb. Müqəddəs Qurani-kərimdən surələr oxunub, axşam namazı qılındıqdan sonra iftar süfrəsi açılıb. Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin əməkdaşı Ayan Həsənova bildirib ki, artıq bir neçə ildir Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Azərbaycan bu layihədə iştirak edir. İftar süfrəsinə gələnlər "Ramazan çadırı" qarşısında açılmış "Azərbaycan" sərgisi ilə tanış olublar. Qeyd edək ki, iftar süfrəsi 600 nəfər üçün nəzərdə tutulub. Azərbaycan Günündə Azərbaycanın Rusiyadakı səfirliyinin əməkdaşları, Rusiya Müftilər Şurasının və Moskva hökumətinin nümayəndələri, qonaqlar iştirak ediblər.

# Elmi-Texnoloji Xəbərlər

## UNUTQANLIĞA QARŞI ZÜLAL



Elm adamları bir zülalın bərpası ilə siçanlarda unutqanlığı aradan qaldırmağı bacarıblar.

Bir virus vasitəsilə beyinlərinə Dnmt3a2 zülalı yeridilən yaşlı siçanların xatırlama qabiliyyətlərinin əhəmiyyətli ölçüdə artdığı görülüb. Bu zülalın miqdarı azaldılan gənc siçanlarda isə unutqanlıq əmələ gəldiyi müşahidə edilib.

Heydelberq Universitetinin elm adamlarından neyrobioloq prof. Hilmar Beydinq nəticələri “Nature Neuroscience” jurnalında dərc edilən tədqiqatla bağlı yaşlılıq zamanı hafizə qabiliyyətinin azaldığını qeyd edərək beyindəki Dnmt3a2 zülalının bu prosesdə mühüm rol oynadığını bildirib.

Bu zülalın miqdarı ilə hafizə qabiliyyətləri arasında əlaqə olduğunu ifadə edən Beydinq bunu siçanlar üzərində apardıqları təcrübələrlə müəyyən etdiklərini qeyd edib.

Əsas biokimyəvi proseslərin eyni olması etibarilə nəticələrin insanlar üçün də əsaslı ola biləcəyini bildirən Beydinq insanın maddələr mübadiləsi sisteminin daha kompleks olduğunu və zülalın virus vasitəsilə insan beyninə yeridilməsinin asan olmayacağını vurğulayıb.

## İtalyan və alman elm adamları barmaqları müstəqil hərəkət edən ilk robot əl düzəldiblər



İtalyan və alman elm adamları normal insan əli ölçüsündə və barmaqları müstəqil hərəkət edən ilk robot əl hazırlayıblar.

Bu barədə verilən xəbərə əsasən elm adamlarının “Dexmart Hand” adlandıqları robot əl insan əlinə ən yaxın texnoloji addımdır.

Cisimləri tutub ağırlıq qaldıra bilən Dexmart ilə bağlı tədqiqat aparan professor Klaudio Melçiori “Robot əl düzəltmək üçün insan əlini əsas götürmüşük. Dexmart ev işlərinə kömək etmə qabiliyyətinə malikdir” açıqlamasını verib.



**Balinalarda yeni orqan tapılıb**

Kiçik bir orqan nəhəng finval balinaya qidalanarkən kömək edir.

Amerikalı və kanadalı elm adamları balinanın alt çənəsində qreyfrut böyüklüyündə bir orqan olduğunu müəyyən ediblər. “Nature” jurnalındakı xəbərə əsasən, sözügedən orqan qidanın qəbul edilməsini əlaqələndirir. Finval balina ailəsinə dünyanın ən böyük heyvanlarından bəziləri daxildir. Məsələn, uzunluğu təxminən 26 m və çəkisi 200 tona yaxın olan dünyanın ən böyük və ən ağır heyvanı olan göy balina da bu ailədəndir. Qırtlaqdan sinəsinə, oradan da bədəninin ortasına qədər uzanan xortuma görə bu balina ailəsinə belə ad verilib. Bunlar sayəsində balinalar ağızlarını açdıqda qırtlaq kisəsi həddindən artıq genişlənir.

Balina bu yolla içində bol miqdarda krevet (kiçik dəniz xərçəngi) və ya balıq olan suyu qırtlaq kisəsində toplaya bilir. Heyvanın ağzı bağlandıqda çölə çıxan su bığlar (diş əvəzinə uzanan xüsusi sümük orqanlar) vasitəsilə süzülür və qidalar ağızda qalır.



# Qidanı necə həzm edirik?

Qəbul etdiyimiz qidalarda bədənimizə lazım olan vacib maddələr var. Yediyimiz çiy qidalar isə öz-özünü həzm edən əhəmiyyətli xəzinə ilə birlikdə bədənimizə daxil olurlar… öz fermentlərilə.

Fermentlər hüceyrəni nizam içində çalışan miniatür fabrikə çevirən zülallardır.

Bu xüsusiyyətə sahib olan qida fermentləri yer üzündə qarşılaşdığımız hər qidada mövcuddur. Ancaq fermentlər istiyə qarşı dözümsüzdürlər. Bir qidanı bişirdiyiniz zaman onun içindəki bütün fermentlər itir. Yediyiniz çiy qidalarda isə qidanın 75 %-ni onun öz fermentləri həzm edir. Bu əməliyyat, yəni qidanın öz fermentləri tərəfindən həzm edilməsi bədən üçün əhəmiyyətlidir. Çünki bədən ayrıca ferment istehsal edərək yorulmur və həzmə kömək edən fermenti istehsal etmək üçün başqa fermentlərin istehsalını yavaşlatmaq məcburiyyətində qalmır.

## Fasiləsiz çalışan meyvə fermentləri

Daim fəaliyyətdə olan fermentlərə ən yaxşı nümunə kimi meyvələrdə olan fermentləri göstərə bilərik. Məsələn, banan... Yaşıl rəngdə olanda bananın 20%-i nişastadan ibarət olur. Ancaq istidə qalanda və üzəri xallanmağa başlayanda amilaz fermenti bananın içindəki 20% nisbətindəki nişastanı 20% nisbətində şəkərə çevirir. Bu şəkərin təxminən ¼-i qlükozadan ibarətdir. Bunun isə bədəndə həzm edilməsinə artıq ehtiyac olmur (Dr. Edward Howell, Enzyme Nutrition "The Food Enzyme Concept", Avery Publishing, 1985, s. 49). Meyvə sahib olduğu fermentlər sayəsində bədəndə reallaşan böyük işi hələ bədənə girmədən tamamlayır. Yəni bədənin işini asanlaşdırır.



## Sistem necə işləyir?

Nümunə verdiyimiz banan kimi, bişirmədən yeyilən hər tərəvəz və ya meyvə bədənə zəhmət verməyərək, bu təchizatla bədənimiz üçün əhəmiyyətli faydalar verir. Bananı yeyəndə ağzınızda başlayan həzm əməliyyatı ilə birlikdə öz fermentləri bananı metabolik fermentlərin istifadə edə biləcəyi kiçik hissələrə ayırır və hüceyrələrə hazır şəkildə təqdim edirlər. Metabolik fermentlər isə bu hissələri götürür, hüceyrə və orqanoidlər üçün lazımi vəsaitə çevirərək onları bədənin bir hissəsi halına gətirirlər.



## Bananın içindəki fermentlər hər meyvədə varmı?

Qidalardakı fermentlər yalnız lazımi qidanı həzm edə biləcək qabiliyyətə malikdir. Məsələn, banandakı amilaz fermenti yalnız bananın nişastasına təsir edir. Bu ferment kartofun nişastasını həzm edə bilməz.



Banandakı fermentlər banandan sonra yediyiniz bişmiş ətin həzm edilməsini təmin edə bilməz. Bu fermentlər bədəninizə ferment də əlavə edə bilməzlər. Onların vəzifəsi bananı həzm etməklə bitir. Qida ilə birlikdə bədənə girən ferment öz həzm edəcəyi qidasını ağızda parçalanmasına baxmayaraq, tanıyır və onu həzm etməyə başlayır. Bu xüsusiyyətləri ilə fermentlər əsl mənada ağıllı davranan molekullardır. Əlbəttə, cansız bir molekulun ağıl nümayiş etdirməsi mümkün deyil. Fermentlərin yerinə yetirdikləri vəzifələrdə şahid olduğumuz ağıl onları bu vəzifələri ilə birlikdə yaradan və bizim xidmətimizə verən uca Allah'a aiddir.

## Uca Rəbbimiz bu həqiqəti bir ayədə insanlara belə bildirir:

**Mən, Rəbbim və Rəbbiniz olan Allah'a təvəkkül etdim. Elə bir canlı yoxdur ki, (Allah) onun kəkilindən tutmuş olmasın. Həqiqətən, Rəbbim ədalətlidir. (Hud surəsi, 56)**

## Fermentlərini itirən bişmiş qidalar necə həzm edilir?

Bişmiş, bu səbəbdən də içindəki bütün fermentləri itirmiş qidanı yeyəndə bədəninizdə hazır olan fermentlər fəaliyyətə başlayır. Həzm orqanları, xüsusilə mədəaltı vəzi istehsala başlayır. Çox miqdarda ferment istehsal edərək bədənə girən qidanın həzm edilməsinə çalışır. Həzm fermentinin çox istehsal edilməsi metabolik fermentlərin istehsal sürətini azalda bilər. Bu da orqanların işləməsi, yenilənməsi və xəstəliklərlə qarşı mübarizə aparmasında problem yarada bilər. Çünki bədənin inkişafı və müdafiəsi üçün lazım olan enerji qidaların həzminə sərf ediləcək.



İnsanın qidalanma sistemində fermentlərin əhəmiyyəti ilə əlaqədar ilk tədqiqatçılardan biri Milli Ferment Şirkətinin (National Enzyme Company) qurucusu dr. Eduard Hauell bununla əlaqədar olaraq demişdir:

Fermentlər sahib olduğumuz əhəmiyyətli xəzinələrdir. Həmişə kənardan gələn fermentin köməyinə açıq olmalıyıq. Əgər yalnız irsi olaraq aldığımız fermentlərə güvənsək, bunlar sabit gəlir tərəfindən dəstəklənməyən bir miras kimi tükənərlər. (a.g.e, s. 6)

## Allah qidaları fermentlərlə dəstəkləyərək insana böyük nemət vermişdir

Fermentlərin bədənə daxil olan kimi nə edəcəklərini bilmələri, tanımadıqları maddələr mübadiləsilə uyğunlaşmaları, dərhal həzm etmələri və lazım olan qidaya yönəlmələri əsl möcüzədir. Bu fermentlər sanki şüurlu davranırlar və qida parçalandığı anda fəaliyyətə keçməli olduqlarını bilirlər. Allah'ın sonsuz ağlı ilə hərəkət edən və Ona boyun əyən fermentlər vasitəsilə gözləriniz görür, ayaqlarınız hərəkət edir və orqanlarınız müntəzəm işləyirlər.



# Bütün Pisliklərin Mənbəyinin Dinsizlik Olduğuna Əsla Etinasız Yanaşmayın

İman gətirənlər bütün həyatları boyu Allah'ın onlara göstərdiyi yola tabe olurlar. Onun əmrlərinə, hökmlərinə diqqətlə yanaşır, ömürlərini Rəbbimizin rizasını qazanmaq üçün keçirirlər. Bunun üçün də Allah'ın insanlar üçün seçib-bəyəndiyi din olan İslama uyğun yaşayır və Quranı özlərinə rəhbər tuturlar. Yüksək vicdanlarına görə Allah'ın onlardan istədiyi və bir çox ayəsində nümunə göstərdiyi gözəl əxlaqı bütün həyatlarında əks etdirirlər. Əsla Rəbbimizin hökmlərindən kənara çıxmaz, qadağalarına etinasız yanaşmazlar.

Allah'ın varlığını israrla inkar edən, inkar etməsə də, Onun göndərdiyi dinə təslim olmağı qəbul etməyən bəzi insanlar isə əsla bu gözəl əxlaqa uyğun yaşamazlar. Quran əxlaqının tələb etdiyi yaxşılıqları heç vaxt etməzlər. Buna görə, din əxlaqına uyğun yaşamayan insanlar hər cür əxlaqsızlığı, çirkin hərəkəti qorxmadan, sonunu düşünmədən edirlər.

Allah qorxusu olmayan insan rahatlıqla yalan söyləyir, oğurluq edir, rüşvət alır, adam öldürür, özünə qəsd edir, qumar oynayır, insanların hüquqlarını tapdalayır, ədalətsizlik edir. Bunları ya açıq-aşkar, ya da özünə görə əsaslandıraraq edir. Qəzəbini boğmur, kinlidir, həsəd aparır, insanları incidən sözləri rahatlıqla deyir, öz mənfəətlərini hər şeydən üstün tutur. Bu insanların arasından: "Mən dindar deyiləm, ancaq pis insan da deyiləm, qəzəblənmirəm də", - deyənlər çıxa bilər. Ancaq bu insan gün gələr, onu özündən çıxaran hadisə ilə qarşılaşar, Allaha təvəkkülü olmadığı üçün qəzəblənər və şəxsinə yaraşdırmadığı hər cür pisliyi etmək üçün özünə haqq verə bilər. Hətta adam öldürər, arxasınca: "Buna layiq idi", - deyə bilər. Bu, Allahdan qoxub-çəkinən insana əsla xas olmayan nəticədir. Çünki inanclı insan səbirlidir və Allah'ın qadağan etdiyi şeyi etməz. Buna görə, qəzəbini cilovlayar.

İnancsız insan: "Mən dinsizəm, ancaq rüşvət almıram, dürüstəm", - deyə bilər. Ancaq bu, sadəcə bir iddiadır. Çünki Allahdan qorxub çəkinməyən insan çətinliyə düşdükdə hər cür pisliyi asanlıqla edir. Məsələn, "uşaqlarımı oxutmaq üçün rüşvət aldım" kimi özünə görə doğru olan bəhanə uydurur. Halbuki, dindar insan belə bir şeyi əsla etməz. Allahdan qorxub-çəkinən insan axirətdə hesabını verə bilməyəcəyi hərəkətdən çəkinər.

Oğurluq da bu qeyri-səmimi davranışa yaxşı misaldır. Oğurluq kimi cəmiyyətdə cinayət hesab edilən hərəkət belə bu insanlar arasında bəzi şərtlər altında normal görünür. Məsələn, otellərdən, kafelərdən götürülən dəsmal, çəngəl-bıçaq kimi əşyalar oğurluq hesab edilməz. Halbuki, din əxlaqına görə bu, hər cür halda əxlaqsızlıqdır.

Bütün bunların hamısı Allahdan qorxub-çəkinməyən insanların ortaq xarakteridir. Bu xarakteri izah etmək üçün yüzlərlə başqa misal çəkmək olar. Belə insanlar gözəl əxlaqlı davranmaq üçün əsla iradə göstərməzlər. Ancaq mənfəətlərinə uyğun olduqda bəzi fədakarlıqlar edə bilərlər. Bu fədakarlıq mənfəətlərinin aradan qalxması ilə sona çatar. Halbuki, dindar insanın iradəsi çox güclüdür. Allah qorxusu bunu tələb edir. Bu qorxu din əxlaqının cəmiyyətə qazandırdığı təhlükəsiz mühitə də zəmanət verir.

Ailə mühitini meydana gətirən vəfa, sədaqət, sevgi və hörmət kimi dəyərlər də dinsiz cəmiyyətdə aradan qalxır. Gözəl əxlaqın gətirdiyi bu davranışları heç bir qarşılıq gözləmədən edənlər ancaq Allahdan qorxan



və bütün etdiklərinə görə axirətdə cavab verəcəklərini bilən inanclı insanlardır.

Mərhəmət, sevgi və fədakarlıq üzərində qurulan, Quran əxlaqına əsaslanan ailələr bir cəmiyyətin gələcəyi və rahatlığı baxımından həyati əhəmiyyət daşıyır. Ancaq bu dəyərlərin aradan qalxdığı dinsiz mühitdə cəmiyyətin əsas dirəyi olan ailə pozularsa, millət də pozular.

Qurana tabe olmaqla əldə edilən bu rahat mühiti təmin etmək ancaq insanların Allah inancı və Allah qorxusu ilə mümkündür. Bunlar qəti, açıq-aşkar həqiqətlərdir.

Dinsizliyin hakim olduğu cəmiyyətdə sosial anarxiya meydana gəlir. Varlı kasıbı əzir, kasıblar da onlara kin bəsləyir, müdir işçiyə, işçi də müdirə qarşı anlayışsız və təcavüzkar münasibət bəsləyir. Ehtiyac içində olan insanlara mərhəmət etmir, əksinə olaraq, qəzəblənirlər. Ata övlada, övlad da ataya qarşı təcavüzkar davranır.

Qəzetlərdə bir gün belə əskik olmayan cinayət və özünəqəsd xəbərlərinin mənbəyini dinsizlik təşkil edir. Sadəcə qəzəbləndiyi, kin bəslədiyi və ya ölümündən fayda əldə edəcəyi üçün gözünü qırpmadan soyuqqanlılıqla adam öldürən bir insan, əlbəttə, axirətdə bu etdiklərinə görə cavab verəcəyini düşünmür.

Allahdan qorxub-çəkinməyən insanın rahatlıqla törətdiyi cinayətlər bütün cəmiyyətin nizamını pozan, rahatlığı yox edən davranışlardır.

Bu cür cəmiyyətdə yardımlaşma, comərdlik kimi anlayışlar yox olmuşdur. İnsanlar bir-birlərini müdafiə etməz, sağlamlıqlarını, rahatlıqlarını əsla düşünməz, insanlara dəyəcək ziyanın qarşısını almağa çalışmazlar. Məsələn, yolda huşunu itirib yıxılan insana fikir vermir, lazımi diqqət göstərmirlər. Hər kəs bir-birindən maksimum dərəcədə faydalanmağa çalışır, buna görə, fırıldaqçılıq etməkdən də çəkinmirlər. Benzin satan benzinə su qatır, supermarket istifadə müddəti sona çatmış məhsulu satmaqdan çəkinmir. Xidmətlər də daima məhduddur, həkim ancaq çox yaxşı müştəriyə lazımi diqqəti göstərir, ancaq yaxşı pul qazanacağını düşünərsə, xidmət edir. Nəticədə, bəzi insanlar ancaq dünyəvi mənfəət əldə etdikdə fədakarlıq edirlər.

Göründüyü kimi, din əxlaqına uyğun yaşamadıqda hər yerdə ictimai problemlər, əxlaqsızlıqlar tükənmir. Elə isə Allah'ın insanlar üçün seçib-bəyəndiyi din əxlaqına təslim olmağın zəruri olduğunu, ancaq bu şəkildə təhlükəsizliyin və rahatlığın əldə



edilǝcǝyini unutmayın. Ancaq Allah'ın ǝmrlǝrinǝ tabe olaraq keçirdiyiniz ömrün axirǝtdǝ dǝ hesabını rahatlıqla verǝcǝyinizi bilin.

Dinsizliyin gǝtirdiyi pis ǝxlaq, hǝr şeydǝn ǝvvǝl, insanların rahatlığını pozur, qǝlblǝrindǝ böyük sıxıntı ǝmǝlǝ gǝtirir. Mǝsǝlǝn, hǝsǝd aparan vǝ buna görǝ ǝtrafına pislik edǝn insanın qǝzǝbi, çǝkdiyi vicdan ǝzabı vǝ hǝsǝdin qǝlbinǝ mǝnfi tǝsiri çox sıxıntı verir. İnsanın hǝsǝd apardığından çox vaxt qarşı tǝrǝfin heç xǝbǝri olmaz, olsa da, bundan zǝrǝr görmǝz. Ona görǝ, insan hǝsǝd apardıqda ancaq özü vicdan ǝzabı çǝkir vǝ qǝzǝblǝnir. Bu da dinsizliyin insanda meydana gǝtirdiyi sıxıntılı ǝhvaldır. Allah bir ayǝdǝ din ǝxlaqından uzaq yaşayan insanların sıxıntısına belǝ diqqǝt çǝkir:

**Allah kimi düz yola yönǝltmǝk istǝsǝ, onun köksünü İslam üçün açıb genişlǝndirǝr, kimi azdırmaq istǝsǝ, onun ürǝyini sanki o, göyǝ çıxırmış kimi daraldıb sıxıntıya salar. Allah iman gǝtirmǝyǝnlǝri belǝcǝ rǝzalǝtǝ salar. (Ǝnam surǝsi, 125)**

Dindar insanlar isǝ bir-birlǝrinin etdiyi yaxşı, xeyirli işlǝrǝ sevinir, bir-birlǝrinin gözǝl xüsusiyyǝtlǝrindǝn zövq alırlar. Bir insanın gözǝlliyi inanclı şǝxsǝ Allah'ın yaratma gücünü xatırladır vǝ Onu tǝsbih edib şanını ucaltmasına sǝbǝb olur. Halbuki, din ǝxlaqından uzaq yaşayan insanların hǝsǝd apardıqlarına görǝ, dediyi incidici sözlǝr, qoyulan lǝqǝblǝr, edilǝn dedi-qodular daima gǝrgin mühit ǝmǝlǝ gǝtirir. Dinsizliyin insanlarda formalaşdırdığı fitnǝkar, sǝbirsiz, dǝyişkǝn xarakter bütün bunları edǝn insanların özlǝrinǝ böyük sıxıntı kimi geri qayıdır. Yǝni insanlar açıq-aşkar özlǝrinǝ zülm edirlǝr. Bir ayǝdǝ Rǝbbimiz belǝ buyurur:

**... lakin insanlar özlǝri özlǝrinǝ zülm edǝrlǝr. (Yunus surǝsi, 44)**

Allahdan qorxub-çǝkinǝn insan hǝr hadisǝdǝ daima sǝbirlǝ davranır. Çǝtinliklǝr heç vaxt onu şövqdǝn salmır, ǝhvalını pozmur. Allaha güvǝndiyinǝ görǝ, hǝr cür hadisǝni qǝtiyyǝtlǝ vǝ mǝtanǝtlǝ qarşılayır. Dinin insanlara bǝxş etdiyi tǝvǝkküllü vǝ rahat ǝhvali-ruhiyyǝyǝ malik olduğuna görǝ, hadisǝlǝri ağılla dǝyǝrlǝndirir vǝ nǝticǝ ǝldǝ edir. Ancaq dinsizliyin gǝtirdiyi tǝvǝkkülsüzlük, sıxıntı vǝ batil qorxularla dolu ǝhvala malik insanlar ǝsla gözǝl hǝyat yaşamazlar. Nǝ cǝmiyyǝt, nǝ dǝ cǝmiyyǝtin fǝrdlǝri dindǝn uzaq mühitdǝ rahatlıq tapmazlar. Allah'ın bir ayǝdǝ dǝ bildirdiyi kimi, **"... qǝlblǝr yalnız Allahı zikr etmǝklǝ aram tapar!" (Rǝd surǝsi, 28)**

# Bədənimizi qoruyan zülallar öz hüceyrələrimizə necə zərər vermirlər?

Bədənimizdə hər an bizi qoruyan sistem var. Bu sistemin bir hissəsini komplement sistemin zülalları təşkil edir. Onlar bədəndəki hər hüceyrəyə hücum etmək üzrə proqramlaşdırılmışlar. Bu, həqiqətən də heyrətamizdir. Çünki bədəni müdafiə etmək üçün yaradıldıqlarına baxmayaraq, bədəndəki bütün hüceyrələri düşmən kimi görürlər.

Komplement sistemin zülalları qaraciyərdə istehsal edilir. Bu hüceyrələr normal şəraitdə qanda heç nəyə təsir etmədən gəzirlər. Ancaq xəbərdar ediləndə, gördükləri bütün hüceyrələri yox etməyə hazır olurlar. Bu xəbərdarlıq komplement sisteminin bir zülalı vasitəsilə bədəndəki bütün sistemə yayılır.

Bu zülallar xəbərdarlıq ediləndə bədəndə dost-düşmən ayrı-seçkiliyi etməzlər. Ancaq bədəndəki zərərsiz hüceyrələr komplement sisteminin zülallarından müdafiə olunacaq şəkildə yaradılmışlar. Komplement sisteminin zülalları bədənə aid hüceyrələrə dəyər-dəyməz, bu zərərsiz hüceyrələr komplement sisteminin zülallarını təsirsiz hala gətirirlər. Bədənə girmiş xarici orqanizmlər isə bu cangüdənlərin hücumuna məruz qalaraq yox olurlar. Şübhəsiz, bu, Rəbbimizin üstün yaratma elminin təcəllilərindən biridir. Böyüyündən-kiçiyinə qədər kainatdakı bütün varlıqların Allah'ın idarəsi və əmri altında olduğu bir ayədə belə xəbər verilir:

**"...Allah'ın ayələri ilə oynamayın. Allah'ın sizə verdiyi nemətləri, öyüd-nəsihət üçün göndərdiyi Kitabı və hikməti xatırlayın! Allah'dan qorxun və Allah'ın, həqiqətən, hər şeyi bildiyini anlayın! (Bəqərə surəsi, 231)**



# DARVİNİSTLƏR SAXTAKARLIQLARLA DÜNYANI ALDATDILAR

Bir elmi nəzəriyyəni, məsələn, Big Bang (Böyük Partlayış) nəzəriyyəsini nəzərdən keçirək. Bu nəzəriyyə Eynşteynin nisbilik nəzəriyyəsinə əsaslanaraq əvvəlcə bir şübhə və fərziyyə kimi irəli sürülmüşdü. Bunun ardınca sözügedən böyük partlayışın baş verdiyini göstərən dəlillər axtarılmağa başlandı. Bu dəlillər həqiqətən də var idi. Sözügedən partlayışı təsdiq edən artıq radiasiya tapılmış, kainatın izotopik xüsusiyyəti (bütün kosmosun mütləq temperaturunun -270 $^{o}$C olması) kəşf edilmişdi. Kainatın getdikcə genişlənməsi də elmi cəhətdən sübut edilmişdi. Bu, sözügedən nəzəriyyəni sübut edən digər mühüm və qəti dəlil idi. Beləliklə, Big Bang nəzəriyyəsi iddialarının hamısı təcrübədən keçirilmiş, təsdiqlənmiş və sübut edilmiş nəzəriyyəyə çevrildi.

Darvinin təkamül nəzəriyyəsi də "fərziyyə" kimi irəli sürülmüşdü. (Əslində təkamül nəzəriyyəsinin irəli sürülmə səbəbi tamamilə ideoloji idi, lakin elmi nəzəriyyə adı altında insanlara tanıdıldı.) Bu nəzəriyyənin əsaslı hesab olunması üçün də eynilə Big Bang kimi bu nəzəriyyənin də iddiaları sübut edilməli idi. Bunun üçün əvvəlcə xəyali təkamül mexanizmlərinin təkamülə səbəb olub-olmadığı aşkarlanmalı idi. XX əsr elminin irəliləməsi Darvinin xəyali təkamül mexanizmi "təbii seleksiyanın" təkamül xarakterli heç bir rolunun olmadığını sübut etmişdi. Genetika elmi isə xəyali təkamül mexanizmi olan təbii seleksiyadan ümidini kəsmiş və əvəzində mutasiyaları təkamül mexanizmi kimi göstərməyə çalışan yeni darvinistləri (neo-darvinizm) ümidsizliyə salmışdı. Mutasiyaların da təkamül xarakterli təsirinin olmadığı başa düşüldükdən sonra növbə Darvinin və darvinistlərin ən böyük gözləntisi olan fosillərə çatmışdı. Fosillərin verdiyi nəticə isə darvinistlər üçün əsl mənada böyük şok idi! İllərlə axtarılan xəyali ara-keçid fosilllər yer üzünün heç bir yerində yox idi. Araşdırmaların dərinləşdirilməsi isə bu nəticəni dəyişdirmədi. İndiyə qədər aparılan bütün tədqiqatlar nəticəsində bircə ara-keçid fosil nümunəsi belə tapılmadı.

Bağlandıqları batil dindən əl çəkmək istəməyən darvinistlərin darvinizmə dəlil tapmaq gözləntisi uzun illər davam etdi. Amma gözlənən xəyali dəlillər heç vaxt üzə çıxmadı. Lakin buna baxmayaraq darvinist yalanlar sona çatmadı. Darvinizm lehinə demaqogiya təkidlə davam etdirildi. Maraqlısı budur ki, 150 il keçməsinə, bircə dəlil belə tapılmamasına və habelə fosillərin və genetika elminin aşkar etdiyi



nəticələrin yaradılış həqiqətini sübut etməsinə baxmayaraq darvinistlər bu batil dinin dimdik ayaqda dura biləcəyinə inanırlar. Əlbəttə, bu onlar üçün böyük xətadır. Əslində nəzəriyyənin tərəfdarları da canlılarda tarixən təkamül hadisəsinin baş vermədiyini bilirlər. Bunu saysız elmi dəlil nəticəsində açıq şəkildə görüblər.

Bütün bunlara baxmayaraq təkamül nəzəriyyəsi bir ideologiya və tərəfdarları tərəfindən mütləq ayaqda tutulmalı batil bir din olduğuna görə darvinistlər saxta elmilik rolunu davam etdirməli olduqlarına inanırlar. Elə darvinistlərin bu saxta dini ayaqda tutmaq üçün 150 ildən bəri saxtakarlıqlara, spekyulasiyalara və saysız-hesabsız təbliğat üsullarına əl atmalarının səbəbi budur. Darvinistlər öz batil dinlərinə əsasən insanlara nəzəriyyələrinin "doğru" olmasını təlqin etmək üçün başqa yol tapa bilməzlər.

Çünki nəzəriyyənin doğruluğuna dair bircə dənə də elmi dəlil yoxdur. Buna görədir ki, darvinizm dininə əsasən insanlara "elmi dəlil vardır" deyə təlqin etməyə çalışırlar.

Missuri Universitetindən doktor Nikolas Komninellis "Creative Defense" adlı kitabında bu böyük yalanın sonrakı illərdə düşəcəyi vəziyyətlə bağlı bu sözlərə yer vermişdir:

''Fəlsəfi cəhətdən təkamül ehkamı bir röyadır. Zərrə qədər sübutu olmayan bir nəzəriyyədir. Əlli il ərzində məktəblərdəki uşaqlar çox məşhurlaşmış yalanları oxuyacaqlar və bundan (təkamül nəzəriyyəsindən) ən cəfəng iddialardan biri kimi bəhs ediləcək. Bir çoxu on doqquzuncu əsrin elmi ilə bağlı ağılsızlıqları başa düşərək ələ salıb güləcəklər''.

Komninellisin diaqnozu doğrudur. Təkamül nəzəriyyəsini yalana əsaslanan bir iddia təşkil edir və bu nəzəriyyənin tarixi saysız-hesabsız saxtakarlıq nümunələrilə doludur. Təkamülün irəli sürdüyü hər iddia, hər dəlil saxtakarlığın məhsuludur. Bu saxtakarlıqların hamısının gerçək mahiyyəti, gerçək üzü ortaya çıxmışdır. Lakin bunlar darvinizm dininin tərəfdarları tərəfindən ört-basdır edilməyə və ya insanlara unutdurulmağa çalışılmışdır. Ancaq nə qədər cəhd etsələr də, darvinist təbliğatın son dərəcə çürük təməllərə əsaslandığını bütün dünya anlamağa başlamışdır. Komninellisin də bildirdiyi kimi, gələcək nəsillər bu böyük yalanın dünya səviyyəsindəki təsirini, onun dünyada məşhur olan professorlar və elm adamları tərəfindən müdafiə edilməsini təəccüb və heyrətlə qarşılayacaq və bu böyük ağılsızlığı uzun illər ələ salacaqlar.

Dəccal belə batil üsullarla insanları Allah'ın dinindən uzaqlaşdırmağa çalışmışdır. Lakin hal-hazırda artıq planları alt-üst olmuşdur. Onun istifadə etdiyi üsul – yəni darvinizm – bugün insanların, hətta uşaqların dilində məsxərə mövzusuna çevrilməyə başlamışdır. Bütün dünya yaxın gələcəkdə darvinizm cəfəngiyyatını utancla xatırlayacaqdır. Şübhəsiz bu, Allah'a qarşı çıxanlara uca Rəbbimizin bir tələsi, cavabıdır. Allah bir ayəsində belə bildirir:

**Onlara öz əməllərinin cəzası artıq yetişdi. İstehza etdikləri onları yaxaladı. (Nəhl surəsi, 34)**

# Sizi Yaradanı nə qədər tanıyırsınız?

Sizi kim yaratdı? Sizə bu bədəni, gözlərinizin rəngini, saçlarınızın rəngini kim verdi? Boyunuzun uzunluğunu, saçlarınızın rəngini kim təyin etdi? Sizinlə birlikdə digər insanları, göyləri, yeri və bu ikisinin arasında yaşayan bütün canlıları kim yaratdı? Kosmosun dərinliklərindəki planetlərin, Günəşin və ulduzların nizamını kim təyin etdi?

Siz bütün bu suallara sadəcə bir cavab verirsiniz: "Allah". Sizin kimi digər insanlardan da bu suallar soruşulduğunda, onlar da: "Allah", - deyə cavab verirlər. Necə ki, Allah Quranda insanların öz ağızları ilə bu həqiqəti təsdiq edəcəklərini belə bildirmişdir:

**Həqiqətən, əgər: "Göyləri və yeri kim yaratmış, günəşi və ayı kim ram etmişdir?" – deyə soruşsan, onlar mütləq: "Allah!" – deyə cavab verəcəklər. Elə isə onlar niyə döndərilirlər? (Ənkəbut surəsi, 61)**

Bəs sizi və kainatı ən incə xüsusiyyətinə qədər planlayan Yaradıcımızı nə qədər tanıyırsınız? Sizi hər an gördüyünü, eşitdiyini, etdiyiniz hər şeydən hər an xəbərdar olduğunu bilirsinizmi? Sizə görə Allah haradadır? Sizi yaratdıqdan sonra öz başınıza buraxır? Yoxsa necə yaşamalı olduğunuzu bildirir? Allah'ı görə bilərsinizmi? Onunla danışa bilən bir insan varmı? İnsanlardan başqa hansı varlıqları yaratdı? O, ölümdən sonra necə həyat vəd edir?

Şübhəsiz, bunlar kimi daha bir çox sual soruşula bilər və siz də özünüzə görə bu sualların hamısını cavablayarsınız. Bu cavablar ya ailənizdən, ya qohumlarınızdan, ya ətrafınızdan, ya da oxuduğunuz kitablardan öyrəndikləriniz olacaq. Ya da illər əvvəl din dərsində oxuduqlarınızdan ağlınızda qalanlar... Bəs verdiyiniz cavabların, həqiqətən, doğru olub-olmadığını heç düşünmüsünüzmü?

Şübhəsiz, hər kəs Allah haqqında çox fərqli fikirlər söyləyə bilər. Filosof Allahı izah edərkən əvvəlcə aldığı təhsili ön plana çıxarır, təsirləndiyi filosofların fikirlərindən istifadə edərək Allah'ı tanıdır. Allah haqqında heç bir məlumatı olmayan evdar qadın qonşusundan eşitdiyi məlumatlara inanır.

Allah'la əlaqədar kitab yazan yazıçı isə bəlkə də heç bir dini təhsil almayıb, hətta Allah'ın endirdiyi ayələrin birini belə bilmir. Lakin bu yazıçının kitabını oxuyan hər kəs sanki onun fikirləri müzakirəsiz doğruymuş kimi qəbul edir, bütün yazılanları tətbiq edir və ətrafındakı hər kəsə özündən çox əmin olaraq oxuduqlarını izah edir. Çox insan o günə qədər ətrafından eşitdiklərinin və öyrəndiklərinin səhv və ya əskik ola biləcəyinə ehtimal vermir.

Lakin unutmaq olmaz ki, insan yanıla bilən, cahillik edə bilən varlıqdır. Bu halda, bizə Allah'ı ən doğru tanıdacaq qaynaq yalnız Onun bizlərə endirdiyi haqq kitab Qurandır. Allah Quranda insanların öyrənməsi lazım olan şeyləri açıqlamışdır. Yuxarıdakı sualların Qurandakı cavablarına baxsaq, əvvəlcə Allahın yalnızca göylərdə deyil, hər yerdə olduğunu görərik. Allah bütün insanlara olduğu kimi sizə də şah damarınızdan daha yaxındır. Sizin hər etdiyinizə şahiddir, hər şeyi görür. Söylədiyiniz bütün sözləri eşidir. İçinizdən etdiyiniz bütün duaları bilir. Hər an sizin yanınızdadır. Üstəlik, Allah dilədiyi quluyla danışır. Məsələn: Quranda hz. Musa ilə danışaraq onu digər insanlardan üstün etdiyi bildirilmişdir. Allah insanları olduğu kimi, mələkləri və cinləri də yaratmışdır. Və Allah dünya həyatından sonra sonsuza qədər davam edəcək cənnət və cəhənnəm həyatı yaratmışdır. İnsanlara ölümlərindən sonra cənnətə gedə bilmələri üçün necə yaşamalarının lazım olduğunu da Quranla bildirmişdir. Bütün bunlar yuxarıda soruşduğumuz sualların çox qısa cavablarıdır və bu cavabların hamısı Quranda var.

Allah 1400 il əvvəl endirdiyi Quran ayələri ilə insanlara Özünü tanıtmış, Özünə aid adları bildirmişdir. Quranda verilən müxtəlif nümunələr və izahlar Onun sonsuz ağlını, elmini, sənətini göz önünə gətirir. Allah Quran ilə Özünü qullarına tanıdır.

**"Onlar: "Sən paksan, müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik. Bilən Sən, hikmət sahibi Sənsən", - dedilər". (Bəqərə surəsi, 32)**



# KEÇMİŞ SİVİLİZASİYALARIN HEYRANEDİCİ İZLƏRİ. BƏŞƏRİYYƏT TARİXİNİN QƏRİBƏ ƏSƏRLƏRİ:

# MEQALİTLƏR

Meqalitlər böyük daş bloklardan ibarət tikililərdir. Bu tikililər müxtəlif məqsədlərlə inşa edilmişdir. Bəşəriyyət tarixinə baxdıqda keçmişdən dövrümüzə qədər bir çox meqalitin qaldığını görürük. Meqalitlərin ən təəccüblü cəhətlərindən biri budur ki, bəziləri bir tondan daha ağır olan daş blokların bu tikililərin inşasında necə istifadə olunmasıdır. Bu nəhəng daşlar hansı yolla inşaat sahəsinə gətirilmiş, hansı texnika vasitəsilə yuxarıya qaldırılmışdır? O dövrün insanları bunları necə üst-üstə qoyaraq bu tikililəri inşa ediblər? Əsasən, daşların uzaq bölgələrdən daşınması ilə inşa edilən bu meqalitlər inşaat və mühəndislik möcüzəsi hesab edilir. Bu cür əsərləri meydana gətirən insanların isə çox qabaqcıl texnologiyaya malik olduqları aydındır.

Piramidaların belə hansı inşaat texnika və texnologiyası ilə tikildiyi bu gün də tam məlum deyil. Dövrümüzün texnologiyası ilə insanların anlaya bilmədiyi bu nəhəng əsərləri bundan təqribən 2500 il əvvəl insanlar böyük bacarıqla inşa ediblər.

Bu tikililərin inşa edilməsi üçün əvvəlcə plan qurulmalı, bu plan inşaatda işləyəcək bütün insanlara doğru izah edilməlidir. Plan qurularkən tikilinin harada, necə inşa ediləcəyini göstərən texniki çertyojlar çəkilməlidir. Habelə, bu texniki çertyojlarda hesablamalar da səhvsiz olmalıdır, çünki ən kiçik səhv tikilinin inşasını qeyri-mümkün edər. Bütün bunlarla yanaşı, inşaatın baş tutması üçün təşkilatçılıq da qüsursuz olmalıdır. İşçilərin bir-birilə düzgün əlaqəsinin təmin edilməsi, ehtiyaclarının (yemək,



Meqalit

dincəlmək və s.) ödənilməsi inşaatın lazımi qaydada davam etməsi və nəticələnməsi üçün əsas şərtlərdir.

Bu tikililəri inşa edən insanların təxmin edildiyindən də artıq bilik, təcrübə və texnologiyaya malik olduğu açıq-aydın görünür. Sivilizasiya həmişə inkişaf etmir, bəzən də geriləyir. Hətta çox vaxt qabaqcıl və geridə qalmış sivilizasiyalar tarixin eyni dövründə dünyanın müxtəlif yerlərində birlikdə yaşayırlar.

Sözügedən meqalitləri inşa edən insanların da qabaqcıl sivilizasiya qurması - arxeoloji və tarixi dəlillərin göstərdiyi kimi - çox yüksək ehtimaldır. Çünki qoyub getdikləri əsərlər hərtərəfli riyaziyyat və həndəsə biliyinə yiyələndiklərini, kələ-kötür ərazilərdə sabit nöqtələri ölçüb üzərində tikili inşa etmək üçün lazımi texniki məlumata malik olduqlarını, coğrafi mövqeləri müəyyən etmək üçün (kompas kimi) alətlərdən istifadə etdiklərini, kilometrlərlə uzaq məsafədən inşaat üçün lazımi materialları daşıya bildiklərini göstərir. Bütün bunları bəzi ibtidai alətlər və ancaq insan gücündən istifadə edərək tikmədikləri aşkardır.

Belə ki, dövrümüzdə tədqiqatçılar və arxeoloqlar tərəfindən aparılan bir çox təcrübə təkamül nəzəriyyəsinin irəli sürdüyü şərtlər altında bu tikililərin inşa edilməsinin qeyri-mümkün olduğunu göstərmişdir. Təkamülçülərin irəli sürdüyü xəyali mühiti dövrümüzdə meydana gətirərək bənzər tikililər inşa etməyə çalışan tədqiqatçıların cəhdləri uğursuzluqla nəticələnmişdir. Sözügedən tədqiqatçılar nəinki bənzər tikilini inşa etmək, bu tikililərin əsas materialları olan daşları bir yerdən başqa yerə daşımaqda belə böyük çətinliklərlə qarşılaşıblar. Bu, da bir daha göstərir ki, o dövrün insanları təkamülçülərin irəli sürdüyü kimi ibtidai həyat tərzi keçirmirdilər. İncəsənətdən zövq alır, memarlıq sənətini yaxşı bilir, inşaat texnologiyasından ustalıqla istifadə edir, astronomik təhlillər aparırdılar.

## Bağdad: İştar qapısı

Keçmiş sivilizasiyalardan çox vaxt daş blokların, ağır daş tikililərin və ya yüz minlərlə il əvvələ aid bəzi daş alətlərin qalması normaldır. Bəzi daş tikililərə və əsərlərə baxaraq

dövrün insanlarının ancaq daşdan istifadə etdiyini, texnologiyadan uzaq, geridə qalmış sivilizasiyaya malik olduğunu irəli sürmək doğru deyil. Bunlar müxtəlif doqmaların təsiri ilə verilən şərhlərdən başqa heç bir elmi əhəmiyyət daşımır. Daha əvvəl də vurğuladığımız və bir çox qabaqcıl təkamülçünün qəbul etdiyi kimi, əldə edilən qalıqlar ictimai həyat haqqında bizə dəqiq məlumat verə bilməz. Ancaq bu tapıntılar ön mühakimələrin mənfi təsirindən çıxaraq dəyərləndirilərsə, həqiqətə daha yaxın şərh vermək mümkündür. Yüz minlərlə il əvvələ aid bir xalq görkəmli taxta qəsrlərdə yaşasa da, şüşə döşəməsi olan estetik imarətlər tiksə də, ən estetik daxili dekorasiya materiallarından istifadə etsə də, minilliklər ərzində külək, yağış, zəlzələ, sel kimi təbii fəlakətlərin təsirilə aşınma nəticəsində bu tikililərdən dövrümüzə aydın dəlillər qalmayacağı açıqdır. Taxtanın, şüşənin, misin, tuncun və digər müxtəlif metalların təbii şərtlər altında aşınması ən çox 100-200 il çəkir. Yəni 150-200 il sonra evinizin beton və ya taxta divarları aşınıb gedər, içindəki əşyalardan isə geriyə çox az iz qalar. Zəlzələyə, selə və ya fırtınaya məruz qaldıqda isə geriyə qalan izlər də yox olar. Bunlardan geriyə ancaq aşınması daha uzun zaman tələb edən daş bloklar qalar. Çünki kiçik parçalara bölünən daş məmulatlar da ovular. Ona görə, bu daş bloklara əsaslanaraq o dövrdə yaşamış xalqların gündəlik həyatları, sosial əlaqələri, inancları, zövqləri, incəsənət anlayışları haqqında dəqiq izah verilə bilməz.

## Nyuqreync

Dünyanın ən məşhur daş tikililərindən biri olan Nyuqreync 93 meqalitdən ibarətdir.

E.ə. 3200-cü ildə inşa edildiyi təxmin edilən Nyuqreync Dublin yaxınlığında bir mavzoleydir. Hələ Misir, Babil və ya Krit sivilizasiyasının olmadığı dövrdə Nyuqreync mövcud idi. Bu dövrdə dünyanın məşhur daş tikililərindən biri olan Stounhenc belə hələ inşa edilməmişdi. Aparılan tədqiqatlar Nyuqreyncin təkcə məzar olmadığını, bu mavzoleyi inşa edənlərin hərtərəfli astronomiya biliyinə malik olduğunu da göstərmişdir. Nyuqreyncin astronomik xüsusiyyətlərinə keçməzdən əvvəl inşaat xüsusiyyətlərinə toxunmaqda fayda vardır. Çünki Nyuqreynci inşa edənlər əhəmiyyətli mühəndislik texnikasına və memarlıq təcrübəsinə malik olublar.



Nyuqreync bir çox arxeoloq tərəfindən texniki möcüzə adlandırılır. Tikilinin üzərindəki qübbə öz-özlüyündə mühəndislik şah əsəridir. Alt tərəfləri ağır, üst tərəfləri yüngül olan monolit daşlar üst-üstə elə qoyulub ki, hər üstdəki daş altdakından bir az daha kənara çıxmış vəziyyətdədir. Bu şəkildə tikilinin üstündə orta hissədə 6 metr hündürlüyündə altıbucaqlı baca əmələ gəlmişdir. Bacanın sonunda lazım gəldikdə açılıb-örtülən daş qapaq var.

Şəkildə Nyuqreyncdən bir hissə görünür. Nyuqreyncin tikintisində istifadə edilmiş daş blokların necə daşındığı, inşaatın hansı texnika ilə həyata keçirildiyi dövrümüzdə hələ də tam aşkar edilməmişdir.

Bu nəhəng tikilinin yaxşı mühəndislik biliyi olan, dəqiq hesablama aparan, düzgün planlaşdırma bacarığına malik, yük daşıyan və praktiki inşaat biliklərindən yaxşı istifadə edən insanlar tərəfindən inşa edildiyi açıq-aşkar görünür. Təkamülçülərin iddiaları ilə belə bir tikilinin necə inşa edildiyini açıqlamaq mümkün deyil. Çünki təkamülçülərin həqiqətdənkənar şərhlərinə əsasən, bu dövrün insanları ibtidai mühitdə yaşayıblar. Ancaq bu cür nəhəng

tikilinin ibtidai mühitdə, inşaat biliyinə malik olmayan insanlar tərəfindən inşa edilməsi qeyri-mümkündür.

Tikilinin astronomik xüsusiyyətləri də heyrətamizdir. Bu nəhəng mavzoley elə inşa edilib ki, Günəşin gün dönümündə tikilinin içində heyranedici işıq oyunu meydana gəlir. Qış günəşinin gün dönümündə, yəni ilin ən qısa günündə günəş doğduqdan qısa müddət sonra günəş işığı birbaşa Nyuqreyncin qəbir otağına düşür. Bundan sonra müxtəlif koridor qapılarında və nəhəng daşlarda əks olunaraq irəliləyir və nəhayət arxa divara çatır. Bu zaman mükəmməl işıq oyunu meydana gəlir. Diqqətçəkən xüsus isə budur ki, işıq tikilinin içinə koridordan deyil, koridor qapısının çardağının üstündə xüsusi açılmış dar dəlikdən girir. Bütün daş bloklar da işığın əks olunması üçün uyğun bucaq altında yerləşdirilib. İşıq oyununu görkəmli edən ünsürlərdən biri də elə budur.

Ona görə, bu nəhəng tikilini inşa edənlər mühəndislik biliyi ilə yanaşı, gün dönümlərini və Günəşin hərəkətini hesablamaq üçün astronomiya biliyinə malik olduğu da məlum olur.

Nyuqreync bölgədə o dövrdən qalmış bir çox daş tikilidən sadəcə biridir. Bu tikiliyə baxaraq ancaq bir şərh vermək olar: bu tikili dərin bilik və təcrübəyə malik insanlar tərəfindən qabaqcıl inşaat texnikası və vasitələri ilə inşa edilmişdir. Həmin dövrdə yaşamış insanların həyatına gəldikdə isə bu cür tikilini inşa edə bilən insanların yaşadığı mühitin də rahat və görkəmli olduğu aşkardır. Astronomiya bilikləri kosmosu müşahidə etmək üçün texnologiyaya və müşahidələrini düzgün ifadə etmək üçün biliyə malik olduqlarına işarə edir. Kosmosu müşahidə edərək etdikləri kəşfləri düzgün şərh edən insanların gündəlik həyatları da bu bilik və təcrübəyə əsasən mədəni olmalıdır. Bəlkə də çox rahat qəsrlərdə yaşayan, gözəl bağçaları olan, yaxşı xəstəxanalarda müalicə almaq imkanına malik, ticarətlə məşğul olan, incəsənətə, ədəbiyyata əhəmiyyət verən, zəngin mədəniyyətə malik bu xalqdan geriyə ancaq bu daş tikili qalmışdır. Bunların hamısı arxeoloji tapıntılar və tarixi faktlara əsaslanaraq bu daş tikili və onu inşa edənlər haqqında veriləcək reallığı əks etdirən şərhlərdir. Təkamülçülər isə sadəcə materialist qəliblər çərçivəsində düşündüklərinə görə, ağıl və elmə uyğun bu şərhlər əvəzinə, məlum doqmaların məhsulu olan hekayələr danışırlar. Ancaq bu hekayələr heç vaxt əsl həqiqəti ifadə edə bilməz.



# Allah'ın imtahan sənətindəki incəliklər



İnsanın dünya həyatındakı imtahanı həyatının son anına qədər davam edir. Hər şeyi ən gözəl şəkildə yaradan uca Rəbbimiz bu imtahanın hər xüsusiyyətini də mükəmməl sənətlə birlikdə yaradır. İnsanın imtahan sənətindəki incəliklərin şüuru ilə yaşaması, bu incəlikləri görməsi, bundan zövq alması və imtahanın hər anında Allah'ın razı olacağı rəftarları göstərməsi axirətdə cənnət həyatını ümid etməsi üçün əhəmiyyətli vasitədir.

Uca Allah yaratdığı hər şeyi sonsuz təfərrüatı ilə birlikdə var etmişdir. Bu böyük sənət başda insanın öz bədəni də daxil olmaqla, ətrafında gördüyü hər hadisədə, Allah'ın yaratdığı hər canlıda və kainatın hər yerində bütün canlılığı və ehtişamı ilə qarşımıza çıxır.

İnsan düşündüyü zaman bədənində, daxili orqanlarının fəaliyyətində, hüceyrənin quruluşunda, Allah'ın yaratdığı hər hansı bir canlıda və bunun kimi bir çox möcüzəvi hadisədə bu incəlikləri görə bilər. Allah'ın yaratdığı incə sənəti həyatımız boyu davam edən imtahanı da tamamilə əhatə etmişdir. Allah'ın **"Hər kəs ölümü dadacaqdır. Biz sizi sınamaq üçün şər və xeyirlə imtahana çəkirik. Siz ancaq Bizə qaytarılacaqsınız!** (Ənbiya surəsi, 35)" ayəsində bildirdiyi kimi, insan həyatı boyu qarşısına çıxan müsbət, mənfi, yaxşı və ya pis hadisələrlə imtahan edilir. Gördüyü, şahid olduğu, hiss etdiyi və Allah'ın onun üçün yaratdığı hər şey insan üçün bir imtahan mövzusudur. Rəbbimiz bu imtahanın hər xüsusiyyətini böyük sənətkarlıqla yaradaraq iman gətirən qullarını müxtəlif sınaqlardan





keçirir. Bu həqiqət bir ayədə belə bildirilir:

**Yoxsa elə hesab edirsiniz ki, Allah sizlərdən cihad edənləri, Allah'dan, Onun Elçisindən və möminlərdən başqasını özlərinə sirdaş tutmayanları sınamadan siz sərbəst buraxılacaqsınız? Allah nə etdiklərinizdən xəbərdardır. (Tövbə surəsi, 16)**

## İman gətirməyənlər Allah'ın imtahan sənətindəki incəlikləri qavraya bilməzlər

Quran əxlaqından uzaq yaşayan bir insanın hadisələri qavrama forması Quran əxlaqına görə yaşayan insanınkından çox fərqlidir. Uca Allah'ın razılığından, Quran əxlaqından və axirət inancından uzaq yaşayan, dünya həyatını əsas götürən insanlar imtahan edildiklərinin şüurunda olmazlar. Belə cəmiyyətlərə qədərə təslimiyyətsizliyin və imtahan olunmanın dərk edilməməsi nəticəsində qəflət, narahatlıq, qorxu və bədbəxtlik hakim olur. Bu zaman hadisələr daim mənfi istiqamətləri ilə qəbul edilir. Hər şey çatışmazlıq və pislik kimi qiymətləndirilir. İnsanlar əllərindəkilərlə kifayətlənmir və sahib olduqlarından ötrü xoşbəxt ola bilmirlər.

Qurana görə düşünən və Quran əxlaqı ilə hərəkət edən bir insan üçün isə qarşısına çıxan hər hadisədə xeyir, hikmət və gözəlliklər var. Belə bir insan hər hansı bir hadisə ilə qarşılaşdıqda, o an həmin hadisənin hikmətlərini görməsə belə, Allah'a və qədərə olan imanından ötrü yaşadıqlarının mütləq xeyirlə yaradıldığını bilir. Allah'ın onun üçün yaratdığı hər şeyin bir sınaq olduğunu bilir. Buna görə də, ancaq özünə Quran əxlaqını rəhbər edən və həyatını Allah'ın istədiyi istiqamətdə yaşayan müsəlmanlar Allah'ın dünya həyatındakı imtahan mühitini incəliklərlə yaratdığını dərk edərlər.

## Möminlərin başlarına gələn imtahan qarşısındakı gözəl davranışları

Saleh möminlər həyatlarının hər dövründə çətinliklərlə qarşılaşa bilərlər. Əhəmiyyətli olan da insanların bu çətinlik anlarında Quran əxlaqını yaşamaları, hər an Allah'ı zikr etmələri və düşdükləri vəziyyətə şükür edib, hamısında bir xeyir və gözəllik olduğunu dərk etmələridir.

Yuxarıda qeyd edilənlərin rahat mühitdə, bolluq və nemətlər içində dərk edilməsi, şübhəsiz ki, daha asandır. Ancaq müsəlmanın imanının gücünü göstərən ən əhəmiyyətli ünsürlərdən biri bu üstün əxlaqını çətin zamanlarda da göstərməsidir. Kasıblıq, aclıq, qorxu,

mallardan azaltma, xəstəlik, inkarçıların təhdidləri, böhtanları və tələləri kimi hadisələrlə qarşılaşanda səbir edən müsəlmanlar gözəl rəftarlarının əvəzini daha gözəli ilə alacaqlar. "Bəqərə" surəsində inananların dünyada yaşadıqları imtahanların nə ola biləcəyi və bunun nəticəsində göstərdikləri gözəl rəftarlar bu şəkildə xəbər verilmişdir:

**Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbir edənlərə müjdə ver. O kəslər ki, onlara bir müsibət üz verdikdə: "Biz, Allah'a məxsusuq və Ona da qayıdacağıq!"– deyirlər. Onlara öz Rəbbi tərəfindən təriflər və mərhəmət vardır. Məhz onlar doğru yolda olanlardır. (Bəqərə surəsi, 155-157)**

## Allah'ın imtahan sənətindəki incəliklər necə qarşımıza çıxır?

Dünya həyatının yaradılışında insanın imtahanı baxımından mühüm hikmətlər var. Allah dünyanı cüt istiqamətdə yaratmışdır. Dünya həyatı bir çox yaradılış möcüzəsini, gözəllikləri, nəfsin xoşuna gələn və insan ruhuna xitab edən saysız nemətləri əhatə edir, lakin bu gözəlliklərlə yanaşı, saysız əskiklik və qüsurlara da sahibdir.

İnsan Allah'ın gözəl surətdə yaratdığı varlıqdır, amma eyni zamanda, bir çox qüsura da malikdir. Dilədiyi təqdirdə hər kəsi mükəmməl şəkildə yaratmağa qadir olan Allah imtahanın tələbi olaraq dünya həyatında gözəlliyin içində çirkinliyi də yaradır. Məsələn, insan bədəni qüsursuz, hər təfərrüatı uca Rəbbimiz tərəfindən mükəmməl yaradılmışdır. İnsanın bədənindəki hər orqan üçün ayrı-ayrı yaradılmış mükəmməl sistem var. Ancaq xəstəliklər bu mükəmməl sistemin çox yaxınındadır. Ortada çox kompleks xüsusiyyətlərə malik orqanizm var. Ancaq bu orqanizm nə qədər mükəmməl olsa da, xəstələnməyə, ən kiçik xarici və ya daxili amillə pozulmağa, çürüməyə, yaşlanmağa və nəticədə ölməyə məhkumdur.

İnsan nemət bolluğu ilə imtahan edildiyi kimi, nemətlərdən azaltma ilə də sınanır. Məsələn, Allah'ın insana bir nemət olaraq verdiyi gözəllik, sağlamlıq, gənclik, pul, mallar, uşaqlar və daha bir çox gözəllik də imtahan vasitəsidir. İnsan bunların hər biri ilə ayrı-ayrı sınanır. Hər insan bu nemətlərə şükür etməklə, gözəl əxlaq göstərməklə və bunları Allah'ın razılığı istiqamətində qiymətləndirməklə imtahan olunur. Çünki Allah'ın imtahan sənətində bu nemətlərin hamısının verilmə hikmətləri var. Nemətlər kimi, əskiklikləri də düşünə bilərik. Çirkinlik, xəstəlik, yaşlılıq, kasıblıq və mallardan azalma da insan üçün ayrı-ayrı yaradılan imtahan vasitələridir.



## Möminlər hər imtahanı səbirlə qarşılayırlar

Allah'ın imtahan sənətindəki incəliklər o qədər qüsursuz işləyir ki, iman gətirən insanlar üçün çirkinliklər gözəlliyə, çətinliklər asanlığa, əskikliklər nemətə çevrilir. Kənardan baxdıqda hər hansı bir çətinlik, əziyyət kimi qəbul edilən vəziyyət imanla və Quran əxlaqına əsaslanan dünyagörüşü ilə nemətlərə çevrilə bilər. Məsələn, dünya həyatında imtahanın tələbi olaraq bir müsəlmanın gözəlliyinə, sağlamlığına və ya malına zərər gələ bilər. Ancaq imanla bu vəziyyət axirətdə sonsuz gözəlliyə çevrilər. Yaxud da Allah'ın imtahan üçün verdiyi xəstəlik qarşısında göstərilən səbir, gözəl əxlaq və təvəkkül müsəlman üçün sonsuz axirət həyatında sonsuz nemətə çevrilə bilər.

Quran əxlaqına görə yaşamayan insanlar üçün Allah'ın imtahan üçün verdiyi nemətlər onların sonsuz həyatında qarşılarına gözəllik kimi çıxmaya bilər (ən doğrusunu Allah bilir). Məsələn, dünyada gözəllik, sağlamlıq, var-dövlət və ya etibar sahibi olan bir insan Allah'ın razılığını qazanmağa istiqamətli yaşamadığı və nankorluq etdiyi üçün bu nemətlər sonsuz axirətdə qarşısına gözəllik kimi deyil, çirkinlik, əskiklik və sonsuz əzabla çıxa bilər.

Əsla unudulmamalıdır ki, dünya qısa sürən imtahan yeridir. İnsan bu müddət ərzində Allah'ın imtahan sənətini və təfərrüatlardakı möcüzələri düşünmək, beləliklə, Rəbbimizi tanımaq, Onun hökmlərinə itaət etmək və yalnız Onun razılığını axtarmaqla məsuldur. Bununla bərabər, həyatı boyu başına gələn hər şeyə ən gözəli ilə cavab vermək, səbir etmək və gözəl əxlaq göstərməklə məsuldur.

Hər şeyin Rəbbimizdən gələn bir sınaq olduğunu bilmək, bunlardan zövq almaq, qarşılaşdığı hər hadisəni sevinc və şövqlə qarşılamaq isə dünyadakı imtahanın möminlərə xas olan sirridir. Allah bu sirri bizə Quranda xəbər vermiş və dünyadakı imtahanımızın nəticəsinə görə axirətdə əvəz alacağımızı xəbər vermişdir:

**İnsanı qarışdırılmış nütfədən yaradaraq onu sınaqdan keçirmək məqsədilə eşidən və görən etdik. Şübhəsiz ki, Biz ona yol göstərdik! Fərqi yoxdur, ya şükür etsin, ya da naşükür olsun. (İnsan surəsi, 2-3)**

Gözəllik və çirkinlik, qüsursuzluq və əskiklik, sağlamlıq və xəstəlik, həyat və ölüm iç-içədir. Allah'ın imtahan sənətinin bir tələbi olaraq bunlar dünya həyatında vəhdət təşkil edir.



# QANDAKI MAYENİN NİSBƏTİNİ TƏNZİMLƏYƏN NƏZARƏTÇİLƏR



İnsan orqanizmindəki suyun miqdarı çox əhəmiyyətlidir. Suyun müəyyən səviyyədən aşağı düşməsi və ya orqanizmdə ehtiyacdan artıq su toplanması insan həyatı üçün təhlükəlidir. Bəs siz orqanizminiz üçün ən ideal su miqdarının nə olduğunu bilirsinizmi? Habelə, hər an orqanizminizdəki suyun nisbətini müəyyən edib lazımi miqdarı təmin etmək üçün tədbir görə bilirsinizmi? Əlbəttə, xeyr. Bəlkə də bu sətirləri oxuyana qədər bu mövzu haqqında heç düşünməmişdiniz. Çünki orqanizminizdə bu mühüm funksiyanı sizin üçün qüsursuz şəkildə yerinə yetirən qeyri-adi sistem mövcuddur. Bu sistemdə insanı heyran edən bir çox yaradılış möcüzəsi var. İndi bu sistemi təhlil edək. Beyindəki hipotalamus hüceyrələrinin qılafında reseptorlar var. Bu reseptorlar qandakı mayenin miqdarını ölçürlər. Diqqət etsək, qandakı maye miqdarını ölçənlər laborant və ya həkimlər deyil, gözlə görünməyən hüceyrənin incə qılafındakı mikroskopik reseptorlardır. Bu reseptorların yerinə yetirdiyi işin nə qədər böyük bilik, qabiliyyət və texnika

tələb etdiyini anlamaq üçün belə bir müqayisə aparaq: bir insanın qarşısına bir şüşə qan qoyduqda bu qandakı mayenin miqdarını deyə bilməz. Bunu hesablamaq üçün həmin sahədə mütəxəssis olmalıdır. Bu da kifayət deyil. Lazımi ölçmələri aparmaq üçün laboratoriyaya və texnikaya ehtiyacı var. Halbuki, hüceyrənin qılafındakı reseptorlar heç bir biliyi, texnikası olmadan insanın həyatı boyu səhvsiz ölçmə aparırlar.

Bu kiçik reseptorların funksiyası bununla məhdudlaşmır. Əgər qandakı maye nisbəti lazımi səviyyədən aşağı olarsa, dərhal tədbir görürlər. Bu, qeyri-adi haldır. Bundan əlavə, reseptorlar təkcə maye miqdarını təsbit etmir, eyni zamanda, ideal maye miqdarını bilərək lazım gəldikdə həyəcan siqnalı verirlər. Həyəcan siqnalı verən reseptor dərhal beyinin arxa hissəsindəki hipofiz vəzinə xəbər göndərir.

Burada mühüm cəhətlər var. Bu reseptorlar hipofiz vəzinin olduğunu və yerini necə bilirlər? Bundan əlavə, təcili hallarda onlara hipofiz vəzinin kömək edəcəyini haradan öyrəniblər? Şübhəsiz ki, bunu onlara Rəbbimiz ilham edir. Sonsuz qüdrət sahibi olan Allah yaratdığı hər canlıya, habelə, bu reseptorlara qüsursuz elmlə vəzifələrini ilham edir.

Hipofiz vəzi xəbəri alan kimi dərhal özündə depolanmış vazopressin adlı hormonu qan dövranına artıq miqdarda buraxmağa başlayır. Ancaq burada bir cəhəti düşünmək lazımdır: hipofiz vəzi necə xəbər alır? Başqa orqandan gələn xəbəri hipofiz vəzi necə anlayır və necə dəyərləndirib dərhal hərəkətə keçir? Bunlar qeyri-adi və şükr etməyə səbəb olan möcüzələrdir.

Hipofiz vəzinin qan dövranına buraxdığı vazopressin isə hipotalamusdakı hüceyrələr tərəfindən hazırlanan hormondur. Çox mühüm funksiyalara malik bu hormonun formulunu hipotalamusdakı hüceyrələr haradan bilir?

Bu hormonun formulu DNT-də şifrələnmişdir. Əlbəttə, bunlar Allah`ın möcüzəvi yaratma dəlillərindən təkcə biridir. Bundan əlavə, xatırladaq ki, insan orqanizmindəki bütün hüceyrələrin nüvəsindəki DNT-lərdə vazopressin hormonuna aid şifrələr var. Ancaq bu şifrədən nə qaraciyər hüceyrələri, nə mədə, nə də əzələ hüceyrələri istifadə edə bilmirlər, təkcə hipotalamus hüceyrələri ondan istifadə edərək bu hormonu hazırlayırlar. Bu paylanma necə həyata keçirilmişdir? Digər hüceyrələrə bu şifrədən istifadə etməyə mane olan nədir?

Vazopressin hormonu ilə bağlı möcüzələr bunlarla məhdudlaşmır. Vazopressin hormonu hazırlandıqdan sonra başqa zülalın içində qablaşdırılaraq hipofiz vəzinə ötürülür və lazım olduqda istifadə edilmək üçün burada depolanır. Kiçik hüceyrənin içində ağlasığmaz dərəcədə kiçik zərrəciklər qüsursuz şəkildə təşkil edilmiş fabrikin tərkib hissələri kimi fəaliyyət göstərirlər.

Xəbər gəldikdən sonra hipofiz vəzindəki anbardan qan dövranına buraxılan vazopressin hormonları dərhal böyrəyə çatırlar.





Burada xatırladaq ki, vazopressin hormonları beyindəki hipofiz vəzindən yola çıxır və böyrəklərə çatana qədər bir çox orqanın yanından keçirlər, ancaq bu hormonlar sanki haraya gedəcəklərini, yollarını və məqsədlərini bilirmiş kimi əsla azmadan və ya başqa orqana getmədən birbaşa böyrəklərə gedirlər.

Böyrəklərə getmə əmrini necə alır və sözügedən şüursuz molekullar necə olur ki, bu əmri anlayaraq yollarını tapırlar?
Böyrəyə çatan vazopressin hormonları böyrəkdəki milyonlarla mikrokanalın ətrafında yerləşən reseptorlara bağlanırlar. Bu reseptorlar vazopressin üçün xüsusi yaradılıblar və açar qıfıla uyğun olduğu kimi bir-birinə uyğundurlar. Bu uyğunluq necə təmin olunub? Hər hansı bir işdə peşəkar olmayan insan bir-birinə tam uyğun iki fərqli formanı düzəldə bilməz. Halbuki, orqanizmdə buna bir çox nümunə var. Bundan əlavə, hər iki hissə, yəni vazopressin hormonu və böyrəkdəki reseptorlar orqanizmin başqa yerlərindəki çox fərqli hüceyrələr tərəfindən inşa edilmələrinə baxmayaraq, qüsursuz uyğunluq təşkil edirlər. Bu uyğunluq isə Rəbbimizin qullarına rəhmətidir.

Hormonun reseptorlara bağlanması ilə böyrəyə "sidikdəki su molekullarını saxla" əmri verilir. Bu xəbərləşmə sistemi sayəsində sidiyin tərkibindəki su molekullarının böyük əksəriyyəti təmizlənir və yenidən qana qarışdırılır. Nəticədə, sidiyin miqdarı azaldılır və orqanizm su qazanır.

Əgər həddindən artıq su içilibsə, bu zaman mexanizm tərsinə işləyir. Qandakı suyun sıxlığı artır. Bu artım nəticəsində hipotalamusdakı nəzarətçilər vazopressin hormonunun ifrazını azaldırlar. Vazopressin hormonu azaldıqda sidiyin miqdarı artır və qandakı su miqdarı normal səviyyəyə çatdırılır.

Bu qüsursuz sistem orqanizmdəki sistemlərdən təkcə biridir, bu sistem belə heç nəyin nəzarətsiz olmadığını, sonsuz ağıl, elm və güc sahibi Allah`ın bu sistemi hər an nəzarəti altında saxladığını göstərir.



# Bir ayə, Bir açıqlama

**İnsanlar elə güman edirlər ki, təkcə: "İman gətirdik!"– demələri ilə onlardan əl çəkiləcək və onlar imtahan edilməyəcəklər? (Ənkəbut surəsi, 2)**

Bu ayədə Allah "İman gətirdim", - deyən qullarını dünya həyatında sınayacağını bildirir. Allah insanlardan səmimi iman istəyir. Bu isə "Mən inandım", - deməklə əldə edilə bilməz. İnsanın dünyadakı vəzifəsi uca Allah'a və axirətə iman gətirmək, Quranda bildirilən gözəl əxlaqlı insan olmaq, Allah'ın hədlərini qorumaq və Onun rizasını qazanmağa çalışmaqdır. Bu səbəbdən, hər insan Allah'a və Onun dininə həqiqətən inandığını, şeytanın onu sapdırmaq üçün göstərdiyi bütün səylərə baxmayaraq, doğru yoldan dönməyəcəyini göstərməlidir. Eyni şəkildə, inkarçılara uymadığını, öz nəfsinin istəklərini Allah'ın rizasından üstün görmədiyini də isbat etməlidir. Bunu isə qarşılaşdığı hadisələrə verdiyi reaksiyalarla ortaya qoyar. Allah din əxlaqını yaşamağı qəbul edən insanın qarşısına səbir tələb olunan bəzi çətinliklər çıxarar, bunlara qarşı göstərdiyi rəftarlarla onu sınayar.

Mömin qarşısına çıxan hər hadisəyə imtahan gözü ilə baxmalı, Allah'a təvəkkül etməli və Onun razılığına uyğun olan rəftarı göstərməlidir. Allah Quranda möminləri qorxu, aclıq, mallardan, canlardan və məhsullardan azaltmaqla sınayacağını bildirir. (Bəqərə surəsi, 155) Yalnız çətinliklər deyil, dünya həyatındakı nemətlər də Allahın bir imtahanıdır. Allah verdiyi hər nemətlə insanın Özünə şükr edib-etməyəcəyini də sınayır. Nemətlərlə yanaşı, Allah insanın qarşısına həyatı boyu qərar verməli olduğu bir çox hadisə çıxarır. Əlbəttə, yaşadıqlarının bir imtahan olduğunu dərk edən və Allah'ın razılığına uyğun olduğunu düşündüyü şəkildə qərar verən möminlər bu imtahanı qazanmağı və Allah'ın Quranda bildirdiyi kimi, cənnət həyatı ilə mükafatlandırılmağı ümid edə bilərlər.

Dünyadakı imtahan mühitində möminlər vicdanlarının səsini dinləyib, Allah'ın onları sınadığını unutmamalıdırlar. Səmimi qəlblə Allah'a yönələn bir insan qarşısına necə çətinlik çıxırsa çıxsın, mütləq bir asanlıqla qarşılaşar və Allah'ın iznilə doğrunu tapar. Bu imtahan dünyasının ən böyük sirlərindən biri odur ki, iman gətirənlər mütləq qazanarlar. Ən böyük qazanclardan biri isə iman gətirənlərin bu sınaqlar qarşısında göstərdikləri gözəl əxlaq, cəsarət və mətanətə görə onların axirətdəki qarşılıqlarının və dərəcələrinin artırılmasıdır.

# DÖVLƏTÇİLİYİN QORUNMASINDA MƏNƏVİ DƏYƏRLƏRİN ROLU

"İndi şükürlər olsun ki, Azərbaycan müstəqil bir dövlətdir. Dünyanın hansı ölkəsində, hansı yerində yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı hiss etməlidir ki, onun Azərbaycan kimi vətəni vardır."

HEYDƏR ƏLİYEV



Dövlət - ortaq həyat və mədəniyyəti paylaşan bir cəmiyyətdə bu cəmiyyəti nizamlama, bu cəmiyyətə təhlükəsizlik, sülh və rifah təmin etmə məqsədini daşıyan və bu məqsədə yönələn qanunlar qəbul etmə, bu qanunları tətbiq etmə, mühakimə etmə, cəzalandırma kimi güclərə sahib olan quruluşdur.

Dövlət, tarixin məlum olan ən qədim cəmiyyətlərindən indiyə kimi həmişə var olmuşdur. Marksistlər ortaya atdıqları xəyali "mədəni təkamül" ssenarisi daxilində dövlətin sonradan ortaya çıxan bir mexanizm olduğunu iddia edirlər. İlk cəmiyyətlərdə dövlət və ya dövlətə bənzər bir qurumun olmadığını, "kommunal" həyat tərzinin mövcudluğunu irəli sürürlər. Halbuki, heç bir tarixi və ya arxeoloji tapıntı bu iddianı təsdiq etmir. Əksinə, haqqında məlumatımız olan ən qədim mədəniyyətlərin hamısında güclü dövlət mexanizmlərinin mövcud olduğu məlumdur. Buna görə də dövlət quruluşunun insanlıq tarixi ilə bir yaşda olduğunu söyləmək mümkündür.



Bu, əslində insanın yaradılışının təbii nəticəsidir. İnsan, yaradılışının tələbi olaraq "doğru" və "yanlış" anlayışlarına malik olmaqla doğrunu öyrənmək və bu doğruya uyğun şəkildə yaşamaq istəyir. Yanlışı tətbiq edənlərin isə dayandırılmasını, onlara mane olmağı arzu edir. Buna görə də insanlara doğrunu göstərən bəzi qanunlar qəbul edən və bu qanunlara tabe olmağı təmin edən bir nüfuzun varlığı zəruridir.

Belə ki, cəmiyyətlərin quruluşu düşünüldüyündə dövlətin nə qədər əhəmiyyətli olduğu asanlıqla görünür. Bir cəmiyyətdə sülh və əsayişi təmin edən, zərərli davranışları qanunla qadağan edən, bu qanunlara da tabe olmağı məcbur edən yeganə güc dövlətdir. Buna paralel olaraq dövrümüzdəki cəmiyyətlərin sağlamlıq, təhsil, milli təhlükəsizlik, infrastruktur kimi xidmətlərin də yalnız dövlət tərəfindən qarşılana biləcəyi aydındır.

Dövlətin ortadan qaldırılmasını müdafiə edən anarxizm isə böyük yanlışlıqdır."Ən yaxşı dövlət, ən az idarə edən dövlətdir" deyən 19-cu əsr liberalizmi yanılmış və dövlətin müdaxiləsinin lazım olduğunu qavraya bilməmişdir.

Dövlətin hər şeydən uzaqlaşdırılması bir tərəfə qalsın, dövlət nüfuzundakı ən kiçik zəiflik belə bir cəmiyyəti böyük problemlərlə qarşı-qarşıya qoyur. Dövlət nüfuzundakı ən kiçik bir boşluq bu boşluğun bəzi qeyri-qanuni qurumlar tərəfindən doldurulması ilə nəticələnər ki, bundan da hamı zərər çəkər. Zəif dövlət, cəmiyyətdəki bəzi mənfəət güdən çevrələrin təsiri altında qalar və yenə bütün cəmiyyət bundan zərər görər.

Dolayısilə, cəmiyyətin hər bir üzvü güclü dövlət mexanizminə tərəfdar olmalıdır. Dövlətin güclənməsi üçün səy göstərməli və dövlətin zəifləməsinə yönələn hərəkətlərə qarşı çıxmalıdır. Qısacası, dövlətinə sahib çıxmalıdır.

## Problemlərin dövlətlə uzlaşaraq həll edilməsi

***"Kim müxalifətdə durursa-dursun, ancaq Vətəninə, xalqına, mənəviyyatına, məsləyinə müxalifətdə durmasın."***

**HEYDƏR ƏLİYEV**

Dövlət tərəfindən cəmiyyətin ümumi faydası üçün yeridilən siyasət bəzən cəmiyyətdəki bəzi qrupları narahat edə bilər.Onlar dövlətin apardığı siyasətin onlara zərər verdiyini düşünə bilərlər.Lakin bu kimi vəziyyətlərdə həll yolu dövlətə qarşı çıxmaq, küçələrə axışıb dövlətə etiraz etməyə çalışmaq, hətta dövlətin təhlükəsizlik güclərinə qarşı çıxmaq deyildir. Həll yolu- problemlərin və tələblərin dövlətə bildirilməsi və dövlətlə birlikdə həll yollarının axtarılmasıdır.

Belə ki, dövlətin bu kimi tələb və problemləri həll edən mexanizmləri var. Dövlətimiz cəmiyyətin tələblərini dinləməyən bir qurum deyil. Əksinə, dövlət mövcud məhkəmə sistemi ilə vətəndaşların mənafelərini qorumağa yönələn quruluşdur.İstəyən hər kəs ərizə ilə dövlət orqanlarına müraciət edə bilər və kömək istəyə bilər. Hətta müvafiq dövlət orqanlarını qabaqcadan xəbərdar

etməklə sərbəst toplaşa bilər, fikirlərini demokratik yolla ifadə edə bilər.

Azərbaycan Respublikası vətəndaşları bu xüsusları nəzərə almalı və hər cür problem və şikayətlərini dövlətə zidd davranmaqla deyil, dövlətin rəsmi instansiyalarına müraciət etməklə və uzlaşma yolu ilə həll etməyə çalışmalıdırlar. Buna uyğun olmayan hərəkət onu edən şəxsə heç bir fayda verməməklə yanaşı, cəmiyyətimizə də yalnız narahatlıq verər.

## DÖVLƏTƏ BAĞLILIQ VƏ ƏXLAQ

**"İslam dini əsrlər boyu bizim mənəviyyatımızın əsasını təşkil etmiş, müsəlmanların dünyada layiqli yer tutmasını təmin etmişdir. Qurani-kərimin bütün kəlamları bu gün Azərbaycanda Allah'ın yolu ilə getməyimiz üçün məşəldir."**

**HEYDƏR ƏLİYEV**



Yuxarıda vətəndaşlarımızın dövlətimizə daima hörmət etmələrinin lazım olduğunu, ancaq bu şəkildə sülh, hüzur və rifah təmin edilə biləcəyini açıqladıq. Ancaq bütün bu məntiqi səbəblərdən başqa dövlətə bağlılığı təmin edən əsl amil cəmiyyətdə görünən əxlaq anlayışıdır.

Əgər bir cəmiyyətdə mənfəətpərəstlik geniş şəkildə yayılarsa, üsyan və qarşıdurma məqbul görülərsə, hörmət və fədakarlıq kimi anlayışlar tərk edilərsə, bu vəziyyətdə o cəmiyyətin fərdlərinin dövlətə bağlı olmaları da düşünülə bilməz. Çünki dövlətə bağlılığın təməlində müəyyən tərbiyə və əxlaq dayanır. Bu tərbiyə və əxlaq olmasa və yuxarıda ifadə etdiyimiz pis əxlaq xüsusiyyətləri cəmiyyətdə yayılarsa, dövlətə bağlılıq anlayışı da özlüyündən ortadan qalxmağa başlayar.

Haqqında danışdığımız tərbiyə və əxlaqın təməlində isə dini inanclar durur.Belə ki, ümummilli liderimiz Heydər Əliyevin **"Biz azərbaycanlılar - bu, sonradan gələcək bütün nəsillərə də tövsiyə olunur - heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacaq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq"** sözü bu həqiqəti bildirir.

## Nəticə

Bütün bunlar dinin insanlara qazandırdığı əxlaq xüsusiyyətlərinin dövlətin davamlılığı və cəmiyyətin rifahı baxımından çox zəruri olduğunu göstərir. Dinsiz insan modelinin meydana gətirdiyi cəmiyyət quruluşu eqoizm və qarşıdurma üzərinə qurulduğu üçün istər-istəməz dövlətə dəstək olan dəyərləri də korlayar. Dinsizlik üsyanı, qarşıdurmanı, anarxiyanı, nifrəti, etibarsızlığı gətirdiyi halda, din insanlara itaəti, sülhü, nizamı, sevgini və etibarı qazandırır. Allah bir ayəsində insanlara **"ey iman gətirənlər, hamınız bir yerdə sülhə gəlin!" deyə buyurur. (Bəqərə surəsi, 208)**.Bu ayədə dəvət edildiyi şəkildə sülh və təhlükəsizliyə əməl edən insanlar dövlətin davamlılığının ən böyük dayağı olarlar.





# Quranın Elmi Möcüzələrindən Nümunələr

Quranın bənzərsiz üslubu və üstün hikməti onun Allahın sözü olduğunun qəti sübutudur. Bununla yanaşı, Quranın Allah qatından nazil edildiyini sübut edən bir çox möcüzəvi xüsusiyyəti də var. Bu xüsusiyyətlərdən biri ancaq XX əsrin texnologiyası ilə əldə etdiyimiz bəzi elmi faktların 1400 il əvvəl Quranda bildirilməsidir.

Allah bundan 14 əsr əvvəl insanlara yolgöstərici kitab olan Qurani-kərimi nazil etmiş və bütün bəşəriyyəti Quran əxlaqına uyğun yaşayaraq xilas olmağa çağırmışdır. Ayədə də bildirildiyi kimi, Quran aləmlər üçün öyüd-nəsihətdən başqa bir şey deyildir (Qələm surəsi, 52). Quran nazil edildiyi gündən qiyamət gününə qədər bəşəriyyətin yeganə yolgöstəricisi olan son İlahi kitabdır.

Quranın möcüzələrindən biri elmi məlumatlardır. Quran elmi kitab deyil. Ancaq Quranda çox ətraflı və hikmətlə izah edilən bəzi möcüzələr elmi kəşflərə ipucu verir. Quran nazil edildiyi dövrdə elmi cəhətdən müəyyən edilməsi qeyri-mümkün olan bu məlumatlar insanlara Quranın Allah'ın sözü olduğunu bir daha sübut edir. İnsanların astronomiya, fizika və ya biologiya haqqında çox az şey bildiyi bu dövrdə nazil edilən Qurani-kərim kainatın yaradılışından insanın yaranmasına, atmosferin quruluşundan yer üzündəki tarazlıqlara qədər bir çox mövzuda köklü məlumat verir. İndi Quranda verilən bu möcüzələrdən bir hissəsinə birlikdə baxaq.

## KAİNATIN YARANMASI

Qurani-kərimdə kainatın yaranması belə bildirilir:

**"O, göyləri və yeri yoxdan var edəndir..." (Ənam surəsi, 101)**



Quranda verilən bu məlumat müasir elmin kəşfləri ilə üst-üstə düşür. Bu gün astrofizika bütün kainatın maddə və zaman ölçüləri ilə birlikdə sıfır həcmdən böyük partlayışla əmələ gəldiyini aşkar etmişdir. "Böyük partlayış", orijinal adı ilə "Big Bang" nəzəriyyəsi bütün kainatın təqribən 15 milyard il əvvəl bircə nöqtənin partlaması ilə yoxluqdan meydana gəldiyini sübut etmişdir. "Böyük partlayış" nəzəriyyəsi bu gün kainatın əmələ gəlməsi və başlanğıcı haqqında bütün elm adamları tərəfindən qəbul edilmiş yeganə elmi açıqlamadır.

"Big Bang"dən əvvəl maddə yox idi. Maddənin, enerjinin, hətta zamanın belə olmadığı, tamamilə metafizik yoxluq mühitində maddə, enerji və zaman yaradılmışdır. Müasir fizikanın aşkar etdiyi bu fakt Quranda bizə 1400 il əvvəl xəbər verilmişdir.

## GÜNƏŞİN HƏRƏKƏT İSTİQAMƏTİ

Quranda Günəş və Ay haqqında bəhs edilərkən hər birinin müəyyən orbitinin olduğu vurğulanır:

**Gecəni və gündüzü də, Günəşi və Ayı da yaradan Odur. Onların hər biri öz orbitində üzür. (Ənbiya surəsi, 33)**

Yuxarıdakı ayədə işlədilən "üzmək" sözünün ərəb dilindəki qarşılığı "sabaha" sözüdür və Günəşin kosmosdakı hərəkətini izah etmək üçün işlədilib. Bu söz Günəşin kosmosda nəzarətsiz hərəkət etmədiyini, öz oxu ətrafında fırlanarkən bir marşrut üzrə hərəkət etdiyini bildirir. Günəşin sabit olmadığı, müəyyən orbitdə hərəkət etdiyi başqa bir ayədə belə bildirilir:

**Günəş də özü üçün müəyyən olunmuş yerdə axıb gedir. Bu, yenilməz qüvvət sahibi olan, bilən Allah'ın təqdiridir. (Yasir surəsi, 38)**

Quranda bildirilən bu həqiqətlər ancaq dövrümüzdəki astronomik müşahidələrlə aşkar edilmişdir. Astronomiya mütəxəssislərinin hesablamalarına görə, Günəş "Solar Apex" adlanan orbitdə Veqa ulduzuna doğru saatda 720.000 km sürətlə hərəkət edir. Bu, Günəşin gündə 17 milyon 280.000 km yol qət etdiyini göstərir. Günəşlə birlikdə onun cazibə sistemi daxilindəki bütün planetlər və peykləri də eyni məsafəni qət edirlər.

## YERİN GEOİD FORMASI

**Bundan sonra da yeri (yayıb) döşədi. (Naziat surəsi, 30)**

Yuxarıdakı ayədə "yayıb döşədi" şəklində tərcümə edilən "dəha" sözü yaymaq mənasını verən "dəhv"



kökündəndir. “Dəhv” sözü döşəmək, düzəltmək mənalarını versə də, daşıdığı məna baxımından sadəcə döşəmək deyil. Bu sözdə yuvarlaq olan şeyi düzəltmək, döşəmək mənasında istifadə edilmişdir.

“Dəhv” kökündən törəmiş digər sözlər də “yuvarlaqlıq” mənası ifadə edir. Məsələn, uşaqların topu yerdəki çuxura salması, daş atıb çuxura salma yarışları, qozla oynanılan oyunların hamısı “dəhv” sözü ilə ifadə edilir. Dəvəquşunun yuva qurması, yatacağı yerdəki daşları təmizləməsi, yumurtladığı yer və yumurtası üçün də bu kökdən törəmiş sözlər işlədilir.

Belə ki, Yerin forması da yumurtaya bənzər şəkildə yuvarlaqdır. Yerin qütblərdən basıq kürəvi forması geoid forma adlanır. Bu baxımdan, ayədə “dəha” sözünün işlədilməsi Allahın Yer haqqında verdiyi mühüm məlumatı ehtiva edir. İnsanların əsrlərlə Yerin düz olduğunu düşünməsi və həqiqi formasının ancaq texnoloji imkanlarla aşkar edilməsi Quranın Allahın vəhyi olduğunu sübut edən dəlillərdən biridir.

## AYA GEDİŞ

**Bədirlənməkdə olan aya ki, siz təbəqədən-təbəqəyə keçəcəksiniz! Onlara nə olub ki, iman gətirmirlər? (İnşiqaq surəsi, 18-20)**

Yuxarıdakı ayələrdə Aya diqqət çəkildikdən sonra təbəqədən-təbəqəyə minib keçilməkdən bəhs edilir. “Tərkəbu” sözü (bir vasitəyə) minmək, yolda yerimək, arxasına düşmək, təqib etmək, qarışmaq, cəhd göstərmək, qoşulmaq, hakim olmaq mənalarını verən “rakibə” felindən törəmişdir. Bu mənaları nəzərə aldıqda “təbəqədən təbəqəyə minib keçəcəksiniz” cümləsində minilən nəqliyyat vasitəsinə işarə edilməsi ehtimalı var.

Belə ki, Aya getmək üçün minilən kosmik vasitələr atmosfer təbəqələrini bir-bir keçdikdən sonra kosmik fəzaya və oradan da Ayın cazibə sahəsinə keçirlər. Beləliklə, bir-birindən ayrı bir çox təbəqədən ard-arda keçərək Aya getmək mümkündür. Bunlarla yanaşı, “İnşiqaq” surəsinin 18-ci ayəsində Aya and içilməsi də vurğunu gücləndirir. Ona görə, yuxarıdakı ayə ilə Aya gedişə işarə edilə bilər (doğrusunu Allah bilir).

## ELEKTRİKDƏN İSTİFADƏ

**... Onun üçün mis mədənini sel kimi əridib axıtdıq... (Səba surəsi, 12)**

Allah’ın hz. Süleymanın (ə.s) əmrinə verdiyi böyük nemətlərdən biri ərimiş mis mədənidir. Bu ayəni müxtəlif cür şərh etmək mümkündür.







Ərimiş mis ilə hz. Süleyman (ə.s) dövründə elektriklə işləyən yüksək texnologiyaya işarə edilə bilər. Məlumdur ki, mis elektrik və temperaturu ən yaxşı ötürən metallardandır və bu cəhəti ilə elektrik sənayesinin əsasını təşkil edir. Dünyada istehsal edilən misin əsas hissəsi elektrik sənayesində istifadə edilir.

Ayədəki "sel kimi əridib axıtdıq" ifadəsi də elektrikin çox geniş sahədə istifadə edilməsinə işarə edə bilər (doğrusunu Allah bilir).

## Nəticə

**"Şübhəsiz ki, bu (Quran) aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir!" (Şuəra surəsi, 192)**

Yuxarıda təhlil etdiyimiz məlumatlar bizə açıq-aydın həqiqəti göstərir: Quran içindəki xəbərlərin hamısının doğru olduğu yeganə haqq Kitabdır. Elmi məsələlərdə, keçmiş və gələcəkdən verilən xəbərlərdə və ya riyazi şifrələrdə o dövrdə heç bir insanın bilmədiyi həqiqətlər ayələrlə xəbər verilmişdir. Bu məlumatların o dövrün elmi səviyyəsi və texnologiyası ilə əldə edilməsi mümkün deyil. Əlbəttə, bu, Quranın insan sözü olmadığının açıq sübutudur.



Quran hər şeyi yoxdan var edən və elmi ilə bütün varlıqları əhatə edən uca Allahın sözüdür. Allah bir ayədə Quran haqqında: **"... Əgər o, Allahdan qeyrisi tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar. (Nisa surəsi, 82)"** - buyurur. Quranın içindəki hər məlumat bu İlahi kitabın naməlum gizli möcüzələrini ortaya qoyur. İnsan isə Allahın nazil etdiyi bu İlahi Kitaba bərk sarılmalı və onu özünə yolgöstərici kimi qəbul etməlidir. Allah Quranda bizə belə bildirir:

**Bu Quran Allahdandır, Ondan başqası tərəfindən uydurula bilməz. Lakin o özündən əvvəlkiləri təsdiq edən kitabı ətraflı izah edər. Onun aləmlərin Rəbbi tərəfindən nazil edilməsinə heç bir şübhə yoxdur! Yoxsa: "Onu özündən uydurdu!" – deyirlər. De: "Əgər doğru deyirsinizsə, ona bənzər bir surə gətirin və Allahdan başqa, kimi bacarırsınızsa, onu da çağırın!" (Yunus surəsi, 37-38)**

**Bu nazil etdiyimiz mübarək bir Kitabdır. Ona tabe olun və Allahdan qorxun ki, bəlkə, sizə rəhm edilsin! (Ənam surəsi, 155)**

## Bütün batil inanclar Quranla təkzib edilmişdir

VII əsrdə Quran nazil edildikdə ərəblər elmi mövzular haqqında saysız-hesabsız mövhumata və batil inanca malik idilər. Kainatı və təbiəti tədqiq etmək üçün texnologiyası olmayan ərəblər nəsildən-nəsilə ötürülmüş əfsanələrə inanırdılar. Məsələn, səmanın dağlar vasitəsilə yuxarıda dayandığını düşünürdülər. Bu inanca görə, Yer düz idi və iki tərəfdən hündür dağlar dirək kimi göy qübbəsini saxlayırdı.



Ancaq ərəblərin bütün batil inancları Quranla birlikdə aradan qaldırıldı. **“Gördüyünüz göyləri dirəksiz olaraq yüksəldən... məhz Allahdır. (Rad surəsi, 2)”** ayəsi göyün dağlarla yuxarıda saxlandığına dair inancı təkzib etdi.

## Quranda dəmir möcüzəsi

Dəmir Quranda diqqət çəkilən elementlərdən biridir. Quranın “Hədid”, yəni “Dəmir” surəsində belə buyurulur:

**...Biz həddindən artıq möhkəm olan və insanlara fayda verən dəmiri də endirdik ... (Hədid surəsi, 25)**

Ayədə dəmir haqqında xüsusi işlədilmiş “endirmək” sözü məcazi şəkildə “insanların xidmətinə verilmə” kimi düşünülə bilər. Ancaq sözün göydən fiziki şəkildə endirmə şəklində həqiqi mənasını nəzərə alsaq, ayənin çox mühüm elmi möcüzəyə işarə etdiyini görərik.

Çünki müasir astronomik kəşflər Yerdəki dəmir filizinin kosmik fəzadakı nəhəng ulduzlardan gəldiyini aşkar etmişdir.

Kainatda ağır metallar böyük ulduzların nüvələrində hasil olunur.

Günəş sistemi isə dəmir elementini hasil edəcək quruluşda deyil. Dəmir ancaq Günəşdən çox böyük ulduzlarda bir neçə yüz milyon dərəcəyə çatan temperaturda əmələ gəlir. Nova və ya Supernova adlandırılan bu ulduzlardakı dəmirin miqdarı müəyyən miqdarı keçdikdə artıq ulduz bunu daşıya bilmir və partlayır.

Bu partlayış nəticəsində tərkibində dəmir olan meteoritlər kosmosa yayılır və hər hansı göy cisminin cazibə qüvvəsi tərəfindən cəzb edilib onunla toqquşana qədər boşluqda dolaşır.

Bütün bunlardan məlum olur ki, dəmir filizi Yerdə əmələ gəlməyib, meteoritlər vasitəsilə supernovalardan daşınaraq eynilə ayədə bildirildiyi kimi, Yerə endirilmişdir. Bu elmi fakt Quranın nazil edildiyi dövrdə elmi cəhətdən aşkar edilə bilməzdi. Ancaq bu həqiqət hər şeyi sonsuz biliyi ilə əhatə edən Allah’ın sözü olan Quranda verilib.

Bununla yanaşı, dəmirdən bəhs edilən “Hədid” surəsinin 25-ci ayəsində çox maraqlı 2 riyazi şifrə var.

“Əl-hədid” Quranın 57-ci surəsidir. “Əl-hədid” sözünün ərəb dilindəki say dəyəri, yəni əbcədi 57-dir.

Təkcə “hədid” sözünün əbcədi 26-dır. 26 isə dəmirin atom nömrəsidir.



# Darvinistlərin etirafları



*Ernest Hekkel:*

*"Etdiyim bu saxtakarlıq etirafından sonra özümü alçaldılmış və qınanmış hiss etməliyəm. Lakin mənim təsəllim budur ki, mənimlə bərabər günahkar olan bir çox adam, bir çox etibarlı müşahidəçi və məşhur bioloq da var ki, onların nərş etdirdikləri ən yaxşı biologiya kitablarında, tezislərində və jurnallarında mənimki qədər edilmiş saxtakarlıqlar, qeyri-dəqiq məlumatlar, az-çox təhrif edilmiş, sxemləşdirilərək yenidən qurulmuş şəkillər var."*

*Təkamülçü düşüncə sahibləri ideologiyalarını, elmi əsaslara qarşı qoyaraq özləri də bilmədən çox vacib mesaj vermişlər: Təkamül elm deyil, elmi həqiqətlərə baxmayaraq, ayaqda tutulmağa çalışılan doqmadır.*



*Məşhur təkamülçü bioloq Coel Duqlas Futuyma:*

*"Canlılar dünyada ya tamamilə mükəmməl və qüsursuz şəkildə ortaya çıxmışlar, ya da özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlmişlər. Əgər qüsursuz və mükəmməl şəkildə ortaya çıxmışlarsa, onda üstün ağıl tərəfindən yaradılmalıdırlar".*



*Məşhur astronom Fred Hoyl:*

*"Təsadüflər nəticəsində bir hüceyrənin meydana gəlməsi tullantı metal yığınının qasırğa ilə sovurduğu hissələrdən təsadüfən bir Boinq 747 təyyarəsinin əmələ gəlməsi qədər mümkünsüzdür".*

**Həqiqətən, göylərdə və yerdə möminlər üçün dəlillər vardır! Sizin yaradılışınızda və yayıb səpələdiyi canlılarda tam yəqinliklə inananlar üçün dəlillər vardır. (Casiyə surəsi, 3-4)**





Bəzən gözlə görünməyən heyvanlardakı bığcıqlar bir çox heyvanın yaşaması üçün böyük əhəmiyyət daşıyan orqanlardır. Uca Allah yer üzündə mükəmməl sistemlər yaratmış, yaratdığı hər şeydə Öz ucalığının və qüdrətinin dəlilləri olan qeyri-adi möcüzələr var etmişdir. Canlıların müxtəlif məqsədlər üçün istifadə etdiyi bığcıqları da hər gün yeni xüsusiyyətləri kəşf edilən yaradılış möcüzələrindən biridir.

### Qarışqaların "bığcıq dili"

Keçən əsrdə qarışqalar üzərində aparılan elmi tədqiqatlar bu kiçik heyvanlar arasında mürəkkəb ünsiyyət şəbəkəsi olduğunu üzə çıxarmışdır.
İnsan qarşısına çıxan bir neçə qarışqanı bir-birindən ayırd edə bilməsə də, bir-birinin tamamilə bənzəri olan qarışqalar bir-birlərini asanlıqla tanıya bilirlər.

### Qarışqalar bir-birlərini necə tanıyırlar?

İşçi qarışqa yuvasına girən qarışqanı tanımaq üçün bığcığı ilə onun bədəninə toxunur.
Koloniyadan olanla olmayanı həmin qarışqanın üzərindəki "koloniyanın qoxusu" ilə dərhal ayırd edir.

Yuvaya girən qarışqa əgər yaddırsa, ev sahibləri bu dəvətsiz qonağı qəbul etmirlər.

Əgər qonaq eyni cinsdən, ancaq başqa koloniyadandırsa, bunu da anlayırlar. Bu halda qonaq qarışqa yuvaya qəbul edilir, ancaq koloniyanın qoxusunu götürənə qədər qonaq qarışqaya daha az yemək verilir.



# CANLILAR DANIŞMADAN NECƏ XƏBƏRLƏŞİRLƏR?



## Bığcıqlarla xəbərləşən kar arılar

Arıların qoxu alma orqanları bığcıqlarındadır. Bığcığın içinə doğru beynindən gələn qoxu sinirləri uzanır. Ancaq bu sinirlər qoxu maddələri ilə birbaşa təmasa girmirlər. Çünki həşəratların bədəni – bığcıqları da daxil olmaqla – qabıqla örtülüdür.

Arı bığcıqlarını mikroskop altında tədqiq etdikdə bığcığın üzərindəki çoxlu dəliklər diqqət çəkir. Beyindən gələn qoxu sinirləri bu dəliklərin içində qurtarır. Ancaq bu dəliklərin üzəri xüsusi pərdə ilə örtülüdür və sinir uclarını qoruyur. Buna baxmayaraq, qoxunu keçirmə xüsusiyyətinə malikdir. Bu dəliklərin arası isə incə tükcüklərlə örtülüdür. Bunlar arının eşitmə tükcükləridir.

Kar arıların tapdıqları yerlərin bir-birlərinə necə xəbər verdiklərini araşdıran elm adamları möcüzəvi hadisə ilə qarşılaşıblar. Arılar tərif etmək istədikləri yeri rəqs edərək digərlərinə başa salırlar. Rəqs zamanı digər işçi arılar istiqaməti tərif edən arının ətrafında toplanır və hər hərəkətini izləyir. Bundan əlavə, rəqqas arının titrəyən qarnına bığcıqları ilə toxunurlar. Bu hərəkət çox vacibdir, çünki arının havada əmələ gətirdiyi qırıq-qırıq axın qida mənbəyinin uzaqlığını bildirir. Arının bədəninin alt hissəsini silkələməsi sayəsində hava axınları əmələ gəlir. Digər arılar da bığcıqları ilə bu axınları qəbul edir və gedəcəkləri qida mənbəyinin uzaqlığını bu yolla müəyyən edirlər.

## Ağcaqanadın həssas bığcıqları

Ağcaqanadlarda eşitmə qabiliyyəti çox mükəmməldir. Ağcaqanadın başının üstündə iki bığcıq var. Bu bığcıqlar çoxlu eşitmə hüceyrələrinə malik həssas reseptorlardır.

Dişi ağcaqanadın qanadlarından çıxan səs erkək ağcaqanada təsir edən ən mühüm faktordur. Dişinin qanad səsləri erkəyin bığcığındakı reseptor hüceyrələrini titrədir və ağcaqanadın beyninə elektrik siqnalları göndərir. Erkək ağcaqanad həssas bığcıqları vasitəsilə cütləşmə vaxtı gəldikdə minlərlə səsin arasından dişinin qanad çırpma tezliyini ayırd edir.

## Termitlərin həssas bığcıqları darvinistlərin təsadüf iddiasını əsassız edir

Termitlər kor olmalarına baxmayaraq, bığcıqlarındakı həssas reseptorlar vasitəsilə yuvalarının təhlükəsizliyini qoruyurlar. Yuvalarına yaxınlaşan canlının düşmən qarışqa, həşərat yoxsa termit olduğunu dərhal ayırd edir və əgər yad canlıdırsa, yuvanın içinə girməyə qoymurlar.

Kor termitin yuvaya yaxınlaşan həşəratı necə tanıdığının səbəbi hər iki canlının yaradılışındakı mükəmməllikdə gizlənmişdir. Həşəratlarda “kitin təbəqəsi” adlandırılan qoruyucu maddə var. Bu təbəqə xüsusi qoxulu hidrokarbon molekulları yayır. Elm adamlarının müxtəlif cihazlarla laboratoriyalarda tədqiq və təhlil edərək üzə çıxardıqları bu molekulları termitlər bığcıqları ilə qəbul edir və buna əsasən, müdafiə hazırlığı görürlər. Termitlərin bu reseptorları o qədər həssasdır ki, öz koloniyalarından olmayan başqa termit cinsini belə asanlıqla ayırd edərək yuvalarına girməyə qoymurlar.

Termitlərin bığcıqları olmadan yaşaması qeyri-mümkündür. Çünki bu bığcıqları ilə nəinki düşmənlərini tanıyır, eyni zamanda istiqamətlərini tapır və koloniya həyatını davam etdirmək üçün kraliça termitdən gələn impulsları qəbul edirlər.

Uca Allah kiçik qarışqada, arıda və ya gözlə görünməyən hüceyrədə kiçik bığcıqlarla yaratdığı bütün canlılar üçün çox mühüm funksiyaların yerinə yetirilməsini təmin edir.

Canlı bığcıqlarında insanın dizayn etdiyi cihazlardan çox üstün xüsusiyyətlər bizə bir həqiqəti göstərir: bütün canlılar möhtəşəm xüsusiyyətləri ilə birlikdə uca Allah’ın əsəridir. Allah bir ayədə belə buyurur:

**… Elə bir canlı yoxdur ki, (Allah) onun kəkilindən tutmuş olmasın… (Hud surəsi, 56)**

# Asanlıq dini İslam



Allah`ın insanlar üçün yaradılışlarına ən uyğun olaraq seçdiyi din İslam dinidir. Allah dinini insanların yaşaya bilməsi üçün çox asan etmişdir. Din insanların üzərindəki bütün sıxıntıları, məhdudiyyətləri, insanlara çətinlik gətirən ağırlıqları qaldırır. İnsanın yalnız sonsuz mərhəmətli, şəfqətli, bağışlayan, saleh qulları üçün hər şeyi xeyirlə yaradan, bütün gücün sahibi olan Allah`ın özü üçün təyin etdiyi qədərə təslim olmasını, hər şeydə yalnız Onun razılığını axtararaq Ona yönəlməsini bildirir.

Kainatdakı hər varlığın və baş verən hər hadisənin sahibi olan Allah`a güvənmək bir insan üçün bütün qorxu, narahatlıq, çətinlik və sıxıntıların sonu deməkdir. Quran əxlaqını yaşayan insana dinin gətirdiyi ən əhəmiyyətli asanlıq və gözəlliklərdən biri budur. Bundan başqa, Allah bütün əmr və qadağaları insan fitrətinə uyğun şəkildə bildirmişdir və heç birində çətinlik yoxdur.

Allah Quranda din əxlaqının asan olduğunu, dininə tabe olanların işlərini asanlaşdıracağını belə bildirir:

**Biz səni ən asan olana müvəffəq edərik. (Əla surəsi, 8)**

**... O, sizi seçdi və atanız İbrahimin dinində olduğu kimi, bu dində də sizin üçün heç bir çətinlik yaratmadı... (Həcc urəsi, 78)**

Peyğəmbərimiz (s.ə.v) də bu ayələri əsas alaraq: ***"Din asanlıqdır. (Buxari, İman: 29; Nəsai, İman: 28; Müsnəd, 5:69)"*** - deyə buyurmuş, insanları dini yaşamağa dəvət etmişdir.

İnsanların dində çətinlik kimi gördükləri əməl və ya inanclar dinə sonradan müşriklər və insanları dindən uzaqlaşdırmaq istəyən inkarçılar tərəfindən əlavə olunmuş və haqq dinin bir parçasıymış kimi insanlara qəbul etdirilmişdir. Bəziləri də özlərini daha təqvalı göstərmək üçün çətin olanı etməyin daha məqbul olacağını düşünməklə yanılmış və göstəriş niyyətli din anlayışını mənimsəmişlər. Halbuki, Peyğəmbərimiz (s.ə.v) yanındakı müsəlmanlara hər zaman dini asanlaşdırmağı əmr etmişdir. Belə olan halda, saleh müsəlmanlar bu əmrə itaət etməli və insanlara asan olanı çətin göstərməməlidirlər.

Peyğəmbərimizin (s.ə.v) bu mövzu ilə əlaqədar bir hədisi belədir:

*"Asanlaşdırın, çətinləşdirməyin. Müjdələyin, nifrət etdirməyin. Bir-birinizlə yaxşı*





*dolanın, ixtilafa düşməyin". (Hz. Səid ibni Əbu Bərdə r.ə) (Ramuz əl-Hədis cild 2, s. 510)*

Yer üzündə yaşayan bütün insanlar kimi siz də hər saat, hər dəqiqə və hər saniyə axirət həyatınıza daha çox yaxınlaşırsınız. Bu, inkarolunmaz həqiqətdir... Bir gün həyatınız sona çatacaq və Allah qatında dünyada etdiklərinizin hesabını verəcəksiniz.

İndiyədək dini çətin gördüyünüz üçün dindən uzaq olub Quran əxlaqını yaşamamış və bir çox səhvləri etmiş ola bilərsiniz. Amma bu andan sonra əhəmiyyətli olan səmimi olaraq Allah`a tövbə edib axirətiniz üçün ən xeyirli işi görməyiniz və asan olana yönəlməyinizdir. Bu qərara gəldiyinizdə bu ana qədər alışdığınızdan tam fərqli və gözəl bir həyata qovuşacağınız isə Allah`ın izni ilə qəti həqiqətdir.

"Gözəl həyat" anlayışı insanlara çox vaxt yad gəlir. İnsanların əksəriyyəti heç bir çətinlik, kədər, qorxu, narahatlıq yaşamayacaqları bir həyatı reallıqdan uzaq xəyal kimi görürlər. Həqiqətən, belə bir həyat dindən uzaq yaşayan insanlar üçün reallaşması mümkün olmayan xəyaldır.

Belə dinc və sevinc içində bir həyatı yalnız Allah`ın razılığını, cənnətini və rəhmətini özlərinə hədəf götürən, Allah`dan qorxub çəkinənlər yaşaya bilərlər. Bu, Allah`ın inanan qullarına müjdələdiyi həqiqətdir:

**Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə, onları mütləq mükafatlandıracağıq. (Nəhl surəsi, 97)**

Yazıda da əhatəli olaraq izah edildiyi kimi, Allah`ın insanlar üçün bildirdiyi din çox asan və zəhmətsizdir. Həmçinin insanın həyatındakı bütün çətinlikləri, sıxıntı və əziyyətləri aradan qaldırır. Dini yaşayan insan Allah`ın qoruması ilə hər işində müvəffəqiyyətə və ən gözəlinə çatar və ayədə bildirildiyi kimi, ən gözəl həyatı yaşayar.

O halda, siz də gözəl olanı və eyni zamanda, ən asan həyatı seçin. Belə bir həyatı Quran əxlaqını yaşayaraq asanlıqla əldə edə bilərsiniz. Çünki Quran bu kainatdakı hər şey kimi, sizi də yaradan Allah`ın sözüdür. Bu ana qədər içində yaşadığınız cəmiyyətdən, ətrafınızdakı insanlardan, qəzetlərdən və televiziyadan aldığınız təlqinləri bir kənara qoyub yalnız Allah`ın sözü olan haqq dinə yönəlin və Quran əxlaqını yaşamağın asanlığını düşünün.

Unutmayın ki, əgər din əxlaqının rahat yaşana bildiyini görməzlikdən gəlib asan olanı tərk etsəniz, axirətdə ümid etmədiyiniz sonsuz acı ilə qarşılaşa bilərsiniz.



# İnsan bədəninin acizliklərindən biri: Allergiya

Ətrafında heç bir narahatlıq olmadığı halda, birdən ard-arda dəfələrlə asqırmağa başlayan, gözləri qızarıb-sulanan, təngnəfəs olan və ya dərisində qızartılar, səpki yaranan insanları görmüsünüz. Bəzən ən sadə qidalardan, arılardan, hətta çiçəklərdən də uzaq duran bu şəxslərin narahatlığının adı allergiyadır.

Allergiya bədənə xarici maddənin girməsi və immun sisteminin hərəkətə keçməsilə başlayır. Bitki mənşəli tozcuqlar allergiyasını (pollinoz) nümunə götürək: irsi olaraq allergiyaya meyilli insan tozcuqlardan təsirləndiyi zaman immun sistemində tozcuqlarda olan zülallara, yəni allergenə qarşı immunoqlobulin E (İgE) deyilən antitel istehsal edilir. Bu antitellərin quruluşu allergenə görə dəyişir. Ev tozundan ev heyvanlarının tükünə, meyvə-tərəvəz növlərindən arıya qədər allergen maddələri çox müxtəlifdir.

## Allergiya necə meydana gəlir?

Hər insanın bədənində İgE adlanan antitel istehsal edilir. Antitelin vəzifəsi orqanizmə soxulan yad cisimləri neytrallaşdırmaqdır. Allergik insanların bədənində daha çox İgE istehsal edilir. Bu zaman immun sistemi tam zərərsiz cisimlərə potensial təhlükəli kimi reaksiya verir. Yəni, allergik insan bədəninə zərər verəcək heç bir şey olmadığı halda, birdən narahatlıq keçirir.

Allergik olmayan insanlarda isə immunoqlobulin G (İgG), ya da immunoqlobulin M (İgM) kimi başqa antitellər istehsal edilir. İgG və ya İgM insanlardakı allergik reaksiyalarda rol oynamır, əksinə, allergiyadan qoruyurlar.

Bütün immunoqlobulinləri isə B lenfosit adlanan xüsusi ağ qan hüceyrələri istehsal edir. B lenfositlərinin antitel düzəltməsinə T lenfositləri adlanan ağ qan hüceyrələri kömək edir. Ayrıca, B lenfositlərinə makrofaj hüceyrələri də kömək edir. Makrofajlar xarici maddələri, yəni allergenləri içlərinə alaraq zərərsizləşdir, sonra onları T lenfositlərinə verirlər. Beləliklə, T lenfositlərini aktivləşdirirlər. T lenfositləri də B lenfositlərinə İgE istehsal etdirir. Bir insan müəyyən bir allergenlə qarşılaşdıqda tək o allergenə məxsus olan bir İgE antiteli istehsal edilir.

Mast adlanan hüceyrələrin səthinə yapışıb gözləyən hər allergenə məxsus İgE molekulları pusqudakı əsgərlər kimi gözləyirlər. Antigen hüceyrələrin səthindəki IgE molekullarına bağlanınca bu hüceyrələr aktivləşir və bir sıra kimyəvi maddə ifraz edir. Bu maddələr də allergik reaksiyalara gətirib çıxarırlar. Ancaq allergik insanlarda İgE antitellərinin niyə daha çox istehsal edildiyi, hansı səbəbdən xəstəlik yaratmayan maddələrə bədənlərinin reaksiya verməsi sualına hələ də cavab tapılmır.



## İnsanın nəyə qarşı allergiyasının olduğu necə müəyyən edilir?

Hər mast hüceyrəsinin içində allergiyaya gətirib çıxaran otuzdan çox maddə daşıyan 500-1500 dənəcik var. Bu maddələrin töküldüyü yer allergik reaksiyaların yerini müəyyən edir. Məsələn, mast hüceyrələri ağciyərlərdə aktivdirsə, sərbəst qalan maddələr bronxları daraldaraq təngnəfəslik, xırıltı və öskürək yaradırlar. Bu maddələrin ən məşhuru histamindir.

Histamin dəridə ortaya çıxdıqda qaşıntı, ağciyərlərdə ortaya çıxdıqda bronx daralması, bütün bədəndə ortaya çıxdıqda allergiya şoku (anofilaktik şok) yarada bilər.

Mast hüceyrələrinin istehsal etdiyi histamin təsiri yaradan digər "əsgərlər" leykotrienlər və sitokinlərdir. Bu "əsgərlər" yerini alınca "döyüş" başlayır. Ardından böyük sürətlə allergik reaksiya meydana gəlir. Məsələn, xaçgülünə allergiyası olan bir insan bu otla qarşılaşdıqdan bir neçə dəqiqə sonra asqırmağa və xırıltılı nəfəs almağa başlayır. Burnu qaşınır və axır, gözləri qızarır, yaşarır və qaşınır.

## Allergiya necə müalicə edilir?

Allergiya müalicəsində ilk addım xəstəni allergiya yaradan maddələrdən uzaq tutmaqdır. Pollinoz allergiyası olanlar bitki tozcuqlarının havada artdığı saatlarda evdən çölə çıxmamalı və evdəki tozcuqları azaltmaq üçün tədbirlər görməlidirlər.

Qidalara qarşı allergiyada isə sınaq üsulu ilə müəyyən olunan qidalardan uzaq durmaq lazımdır. Hal-hazırda allergiya müalicəsində bir çox dərmandan istifadə edilir. Ən yaxşı dərmanların belə allergiyanı yatıra bilmədiyi vəziyyətlərdə həkimlər allergiya iynələrindən istifadə edərək immunitet reaksiyasını dəyişdirməyi sınayırlar. Bu müalicədə xəstəyə allergik olduğu maddələr az miqdarlarda təkrar-təkrar inyeksiya edilərək immun sistemi o maddəyə qarşı laqeydləşdirilir. Allergiya kimi narahatlıqlar bizə immun sistemimizin möcüzəvi xüsusiyyətlərini düşündürdükləri kimi, insanın nə qədər aciz bir varlıq olduğunu da göstərir. Allah bir ayədə bu şəkildə bildirir:

**"Ey insanlar! Siz Allah'a möhtacsınız. Allah isə möhtac deyildir. O, şükrə layiqdir!" (Fatir surəsi, 15)**

## Öldürən allergiya: anofilaktik şok

Allergiyanın ən ağır və təhlükəli forması – anofilaktik şok bütün bədənə təsir edən məşhur allergik reaksiyalarla bağlı inkişaf edir. Anofilaktik şok, yəni allergik şok erkən tanınıb təcili olaraq müalicə edilmədikdə insanı şoka sala bilər və ya ölümə gətirib çıxara bilər. Tez-tez eşitdiyimiz "penisillin iynəsi vuruldu, həyatını itirdi" və ya "arı sancmasından öldü" kimi hadisələrin səbəbi anofilaktik şokdur.

İlk anofilaktik ölüm hadisəsi e.ə. 2641-ci ildə arı sancmasından dünyasını dəyişən Misir fironu Mensesdir.

Ölümcül anofilaktiklərin hər il on milyon insandan 4-20-ində görülə biləcəyi təxmin edilir. Məsələn, Türkiyədə hər il təxminən 100 nəfər anofilaktik şokdan həyatını itirir.



# İslam əxlaqının möminlərə qazandırdığı KEYFİYYƏT ANLAYIŞI

Quran insanın ömrü boyu ehtiyacı olan bütün suallara cavab verən, həyatın hər sahəsində yol göstərən, hər problemə ən mükəmməl, ən ağıllı həll yolları təqdim edən İlahi kitabdır. Allah Quranda insanların ehtiyacı olan hər mövzunu açıqlamışdır. Gündəlik həyatda rast gəlinən bir hadisədən həyati əhəmiyyətli bir məsələyə qədər hər sahədə necə davranmaq lazım olduğu Quranda müxtəlif nümunələrlə bildirilmişdir. Quranın bu xüsusiyyəti ayələrdə belə bildirilir:

**“... Biz Kitabı sənə hər şey üçün bir izah, müsəlmanlara da doğru yolu göstərən rəhbər, mərhəmət və müjdə olaraq nazil etdik”. (Nəhl surəsi, 89)**

Quranla ona bildirilən bütün bu məlumatlara yiyələnən mömin həyatının hər anında üstün əxlaq anlayışı qazanır. İmanından qaynaqlanan Allah qorxusu ilə **“Ey iman gətirənlər! Əgər Allah`dan qorxsanız, O sizə haqla-nahaqqı ayırd edən (bir nur) verər, günahlarınızın üstünü örtüb sizi bağışlayar. Allah böyük lütf sahibidir! (Ənfal surəsi, 29)”** ayəsində bildirildiyi kimi, doğru ilə yanlışı ayırd edəcək ağıla malik olar. Uca Allah`ın bir rəhməti olaraq həyatının hər anında ona yaxşı ilə pisi ayırd etmək üçün ilham verən vicdanı sayəsində yaxşının yaxşısını asanlıqla görər.

Bütün həyatını bu şəkildə Allah`dan qorxub çəkinərək, Allah`ın rizasına uyğun əməllər edərək və vicdanını dinləyərək keçirər. Quranın **“Onlar Allah`a, axirət gününə inanır, yaxşı işlər görməyi əmr edir, pis əməllərdən çəkindirir və xeyirli işlər görməyə tələsirlər. Onlar əməlisaleh şəxslərdəndirlər. (Ali-İmran surəsi, 114)”** ayəsilə bildirildiyi kimi, hər an xeyir işlər görməkdə yarışaraq və saleh əməllər edərək Allah`ın rizasını və cənnətini qazanmağa çalışar. Başqa bir ayədə isə **“Allah doğru yolda olanların doğruluğunu artırar. Davamlı olan yaxşı işlər isə Rəbbinin yanında savab etibarilə daha xeyirli, nəticə etibarilə daha yaxşıdır! (Məryəm surəsi, 76)”** şəklində bildirilən həqiqəti bildiyi üçün gördüyü yaxşı işlərdə qətiyyətli olar. Bu qətiyyət və davamlılıq onu dünyada üstün əxlaq səviyyəsinə çatdırar.



## Keyfiyyətsizlik İslama düşmən olan gizli qüvvədir

İslam əxlaqı ilə yaşamaq üçün ciddi səy göstərmək insanları hər cür pis əməldən uzaqlaşdırıb gözəl davranışlara sövq etməklə yanaşı, möminlərə üstün keyfiyyət anlayışı da qazandırır. Ona görə, tamamilə Quran əxlaqı ilə yaşadıqda insanların yetişdiyi mühit, şərait, təhsil və mədəni səviyyə, bilik və etika anlayışı nə olsa da, bu keyfiyyət insanların bütün davranışlarında özünü göstərir. Davranış tərzindən danışıq üslubuna, oturub-qalxmalarına, geyim tərzlərinə və təmizliklərinə, estetika və incəsənət anlayışlarından süfrə mədəniyyətinə, yerişlərinə, zarafat anlayışlarına, gülmələrinə qədər hər sahədə bu xüsusiyyətləri diqqət çəkir.

Səhər oyandıqları andan gecə yuxuya gedənə qədər etdikləri hər işdə Quran əxlaqına görə düşünməyə, danışmağa və hərəkət etməyə böyük diqqət göstərirlər. Bütün davranışları, söhbətləri, estetik zövqləri, incəsənət anlayışları və etikaları ilə digər insanlara nümunə olurlar. Bu xüsusiyyətləri ilə birlikdə olduqları insanlara xoş təsir edir, fayda verir, həmişə xeyirə səbəb olur və davranışları ilə ətraflarına daima gözəllik bəxş edirlər.

Möminlər Quran əxlaqının qazandırdığı bu cür üstün keyfiyyət anlayışının İslamın bütün dünyaya təbliğ edilməsində nə qədər mühüm yer tutduğunu anlayırlar. Hər şeydən əvvəl, iman gətirən insan sözləri ilə olduğu qədər əməlləri ilə də ətrafındakı insanlara Quran əxlaqını təbliğ edir. Buna görə, bir mömin dərk edir ki, Quran ayələrində bildirilən bütün gözəl əxlaqi xüsusiyyətləri və davranış incəliklərini, əvvəla, özü tətbiq etməli və başqalarına da nümunə olmalıdır. Çünki keyfiyyətsizlik, əslində, İslam düşməni, daxildən müsəlmanlara zərər verən, Quran əxlaqının təbliğinə mənfi təsir edən gizli qüvvədir. İslam əxlaqını müdafiə edərkən və digərlərini də Quran əxlaqı ilə yaşamağa dəvət edərkən insanın özünün Quran əxlaqını lazımınca yaşamaması, dərin imana yaraşmayan əməllər etməsi gizli olaraq İslam əxlaqının təbliğinə zərər verən davranışlardır. Keyfiyyətsiz insanların Quran əxlaqına zidd keyfiyyətsiz davranışlarla gözəl əxlaqı və keyfiyyəti müdafiə etməsi insanlar üzərində lazımi təsirin meydana gəlməsinə mane ola bilər. Bir çox insan onlara gözəl əxlaqı təbliğ edən insanların əməllərindəki bu çatışmazlıqlara görə mənfi təsirlənir. Bu vəziyyət onların Quran əxlaqı haqqında yanlış

rəy əldə etməsinə və məhz bu cür insanların davranışlarına görə İslamdan uzaqlaşmalarına səbəb olur. Bu cür yanlış yanaşma keyfiyyətli müsəlman yetişdirilməsində də faydasız olur. Unutmaq olmaz ki, hər mömin tək başına İslamı və bütün müsəlmanları təmsil edən mühüm məsuliyyəti üzərinə götürmüşdür. Həyatının hər anında harada, hansı şəraitdə və necə insanlarla birlikdə olsa da, Qurana uyğun həyat tərzindən əl çəkməməlidir. Olduğu mühitə, ünsiyyətdə olduğu insanların əxlaqına, mövqelərinə və ya maddi vəziyyətinə, gördüyü işə, iştirak etdiyi söhbətin mövzusuna görə dəyişməməlidir. Çünki belə bir davranış Quran əxlaqına ziddir. Allah Quran ayələrində, məqalənin əvvəlində də qeyd etdiyimiz kimi, davamlı olan yaxşı işlərin qəbul edildiyini bildirir. Mömin həyatının sonuna qədər Allah`ın ən çox razı qaldığı əməllərdə qətiyyətli davranar. Allah`ın rizasına uyğun olmadığını bilə-bilə, Quran əxlaqına zidd hərəkətlər etməz. Allah`ın Quranda bildirdiyi və tərifədiyi təqva əxlaqına uyğun olan da budur. Allah Quranda möminlərin müttəqilərə rəhbər olacaq nümunəvi şəxslər olmağı hədəfləyən insanlar olduğunu belə bildirir:

**“Və o kəslər ki: “Ey Rəbbimiz, bizə zövcələrimizdən və uşaqlarımızdan gözümüzün işığı olacaq övladlar ehsan buyur və bizi müttəqilərə imam (rəhbər) et!” – deyərlər”. (Furqan surəsi, 74)**

Buna görə, bütün möminlər bu həqiqət üzərində düşünməli, bu cür nöqsanın İslamın adına necə mənfi təsir edəcəyini dərk etməlidirlər. Bundan əlavə, unutmaq olmaz ki, İslam əxlaqını və Qurana uyğun mömin davranışını insanlara yanlış tanıtmaq insanın boynuna axirətdə böyük məsuliyyət qoyur. Belə bir keyfiyyətsizlikdən xilas olmağın yolu isə olduqca asandır. Həll yolu Allah`dan səmimi şəkildə qorxmaq və tam şəkildə Quran əxlaqı ilə yaşamaqdır. Allah`dan lazımınca qorxub-çəkinmək, hər an, hər yerdə vicdanını dinləmək insanı keyfiyyətsiz davranış, söhbət və düşüncə tərzindən tamamilə çəkindirir.

Quranda insanın nəfsini Qurana zidd əməllərdən çəkindirməsi ilə xilas olacağı belə bildirilir:

**“Nəfsini təmizləyən mütləq nicat tapacaqdır! Onu (günaha) batıran isə, əlbəttə, ziyana uğrayacaqdır”. (Şəms surəsi, 9-10)**



Digər ayələrdə isə Qurana tamamilə əməl edən insanın şan və şərəf qazanacağı və qaranlıqlardan nura çıxacağı belə müjdələnir:

**"... Biz onlar üçün şan və şərəflərini (Zikr) gətirdik, onlar isə özlərinə verilən Zikrdən üz döndərirlər". (Muminun surəsi, 71)**

**"Allah Onun rizasını arayan şəxsləri (bu Kitabla) əmin-amanlıq yollarına yönəldər, onları öz iznilə zülmətdən nura çıxarar..." (Maidə surəsi, 16)**

## Peyğəmbərimizin (s.ə.v.) əməllərindəki mükəmməllik və üstün keyfiyyət anlayışı

Allah Quranın **"Şübhəsiz ki, sənin üçün tükənməz bir mükafat hazırlanmışdır. Şübhəsiz ki, sən böyük bir əxlaq üzərindəsən! (Qaləm surəsi, 3-4)"** ayələri ilə Peyğəmbərimizin (s.ə.v) əxlaqını tərifləmiş və bütün müsəlmanlara nümunə göstərmişdir. Allah bu ayələrdə Peyğəmbərimiz (s.ə.v) üçün tükənməz mükafat olduğunu bildirmişdir. Bu, Peyğəmbərimiz hz. Muhəmmədin (s.ə.v) daima gözəl əxlaqlı davrandığını, təqvadan heç vaxt əl çəkmədiyini göstərir.

Peyğəmbərimizin (s.ə.v) də: ***"İmanın kamalı gözəl əxlaqladır. (G.Ahmed Ziyaüddin, Ramuz El Hadis, 2-ci cild, Gonca Yayınevi, İstanbul, 1997, 344/4)"*** - sözlərilə bildirdiyi kimi, imanın ən mühüm əlamətlərindən biri gözəl əxlaqdır. Buna görə, gözəl əxlaqın ən gözəl nümunələrini öyrənmək və tətbiq etmək mühüm ibadətdir. Peyğəmbərimiz hz. Muhəmməd (s.ə.v) üstün əxlaqı, ağlı, fərasəti, bəsirəti, təvazökarlığı, sevgisi və mərhəmətilə bütün möminlərə nümunə olmuş, olduğu mühitləri ən gözəl və hikmətli söhbətlərin edildiyi, coşğun, sevgi dolu, təmiz, rahat və təhlükəsiz, keyfiyyətli mühitə çevirmişdir. Bütün müsəlmanlar da bu həqiqəti dərk edərək özlərini daima təkmilləşdirməli, əxlaqlarını daha da gözəlləşdirmək üçün səy göstərməli və olduqları hər mühitin Peyğəmbərimizin (s.ə.v.) olduğu mühitlər kimi olmasına cəhd etməlidirlər.

Səhabələrin bir çox rəvayətində Peyğəmbərimizin (s.ə.v) nəzakətli, incə düşüncəli və üstün keyfiyyətə malik davranışlarına dair nümunələr verilir. Peyğəmbərimiz (s.ə.v) həm peyğəmbər, həm dövlət başçısı olması etibarilə, hər zümrədən olan insanla daima ünsiyyətdə olmuş, dövlət və qəbilə rəislərindən varlı insanlarla, kasıb, zəif, kimsəsiz yetimlərdən qadın və uşaqlara qədər hər kəslə görüşmüşdür. Sosial statusu, həyat tərzi, xasiyyəti, adətləri bir-birindən tamamilə fərqli bütün bu insanlarla hər mövzuda dialoq qurmuş, hamısının könlünü



almış, hər biri ilə nəzakətlə, anlayış və səbirlə gözəl davranmışdır. Hər bir şəraitdə əsla davranışlarındakı keyfiyyətdən, əsalətdən və üstün əxlaqdan əl çəkməmişdir.

Peyğəmbərimizin (s.ə.v) ətrafındakı yaxın səhabələrinin nəql etdiyi rəvayətlərdən onun "çox nəzakətli, keyfiyyətli, xoşxasiyyət, incədüşüncəli" olduğu məlum olur. Peyğəmbərimiz (s.ə.v) ədəb, tərbiyə və etika qaydalarını həyatında ən ideal şəkildə tətbiq etmişdir. Bununla bağlı hədislərdən bəziləri aşağıdakılardır:

Hz. Aişə (r.ə): "Rəsulullahdan (s.ə.v) daha gözəl əxlaqlı kimsə yoxdur. Səhabələrindən və ailəsindən bir nəfər onu çağırdıqda: "Buyurun", - deyə cavab verirdi. Buna görə, Allah ona: "Sən böyük bir əxlaq üzərindəsən", - buyurmuşdur", - deyərək Peyğəmbərimizin (s.ə.v) gözəl əxlaqından bəhs etmişdir.

Peyğəmbərimizin (s.ə.v) evində böyümüş və illərlə ona xidmət etmiş hz. Ənəs (r.ə) Peyğəmbərimizin (s.ə.v) nəzakətindən belə bəhs etmişdir:

"Ondan bir şey soruşanı diqqətlə dinləyir, sualı verən yanından ayrılmadıqca onu tərk etməzdi. Rəsulullah (s.ə.v) ilə bir insan əl verib görüşsə və ya görüşmək üçün əlini uzatsa, qarşısındakı insan əlini çəkmədən Rəsulullah (s.ə.v) əlini çəkməzdi. Biri ilə üz-üzə gəldikdə də qarşısındakı üzünü çevirib ayrılmadıqca Rəsulullah ondan üzünü çevirməzdi. Qarşısında oturan insana əsla ayaqlarını uzatmazdı. Qarşılaşdığı şəxsə əvvəlcə özü salam verərdi. Səhabələrilə görüşərkən əvvəlcə özü əl verirdi.

Heç kimin sözünü kəsməz, söhbətini yarımçıq qoymazdı. Danışdığı insan sözünü bitirmədən və ya getmək üçün ayağa qalxmadan söhbətinə davam edərdi.

Rəsulullaha on il xidmət etmişəm, vallah, mənə "of" belə deməyib. Bir işi gecikdirsəm və ya bir əmrini yerinə yetirməsəm, mənə acıqlanmazdı, ailəsindən acıqlanan olsa, onlara da: "Ona toxunmayın. Bu işi etməsi təqdir edilsəydi, edərdi", - buyurardı.

***Bir gün bir iş üçün bir yerə getməyimi buyurdu. Yanından çıxdıqdan sonra küçədə bir neçə uşağın oynadığını gördüm və onlara baxmağa başladım, başım qarışdı. Bu zaman arxadan birisi iki əli ilə başımı tutdu. Çevrilib baxanda gördüm ki, odur, gülür. Mənə: "Ənəs, sənə dediyim yerə getdinmi?" - dedi. "Xeyr, hələ getməmişəm, gedəcəyəm", - dedim.***

***"Mən ona illərlə xidmət etdim. Vallah, bir dəfə də etdiyim bir işə görə: "Niyə etmisən?", etmədiyim işə görə də: "Niyə etməmisən?" - dediyini xatırlamıram". ( Konyalı Mehmed Vehbi, Tam Metni Sahih-i Buhari, 4-cü cild, Üçdal Neşriyat, İstanbul 1993, səh.340)***

Peyğəmbərimizin (s.ə.v) möminlərə də gözəl əxlaqı tövsiyə etdiyi hədislərindən bəziləri bunlardır:

***"Rəbbim mənə doqquz şeyi əmr edib: gizlidə və aşkarda Allah`dan qorxmağı, qəzəblənərkən də, razı qalarkən də ədalətli olmağı, kasıb və varlı olarkən də qənaətkar olmağı, məndən ayrılanla da sileyi-rəhm (dostluq) etməyi, məni məhrum edənə verməyi, mənə zülm edəni***

*bağışlamağı, susduqda təfəkkür etməyi, danışdıqda zikr etməyi, ibrət gözü ilə baxmağı, doğru və gözəl şeyi əmr etməyi". (Kütüb-i Sitte, Muhtasarı Tercüme ve Şerhi, Prof. Dr. İbrahim Canan, 16-cı cild, Akçağ Yayınları, Ankara, səh. 317)*

*"Sənə zülm edəni bağışla. Səndən küsənə yaxınlaş, sənə pislik edənə yaxşılıq et. Əleyhinə də olsa, haqqı söylə". (Kütüb-i Sitte, Muhtasarı Tercüme ve Şerhi, Prof. Dr. İbrahim Canan, 16-cı cild, Akçağ Yayınları, Ankara, səh. 317)*

*"Harada olsan da, Allah`dan lazımınca qorxub-çəkin və pisliyin ardınca yaxşılıq et, bu, onu yox edər. İnsanlarla yaxşı davran". (Kütüb-i Sitte, Muhtasarı Tercüme ve Şerhi, Prof. Dr. İbrahim Canan, 16-cı cild, Akçağ Yayınları, Ankara, səh. 328)*

*"İnsanlarla gözəl əxlaqla rəftar et". (İbni Kesir, Sire, 4:194-195; Salih Suruç, Kainatın Efendisi Peygamberimizin Hayatı, Yeni Asya Yayınları, İstanbul, 1998, səh.507)*

*Peyğəmbərimiz (s.ə.v) Yəmənə göndərdiyi elçilərinə bunları tövsiyə etmişdir:*

*"Sirkə balı pozduğu kimi, pis xasiyyət də əməli pozur". (İbn Hıbban; Huccetü'l İslam İmam Gazali, İhya'u Ulum'id-din, 3-cü cild, tərcümə edən: Dr. Sıtkı Gülle, Huzur Yayınevi, İstanbul 1998, səh. 111)*

*"Möminin şərəfi dini, əsaləti gözəl əxlaqı, mürvəti də ağlıdır". (İbn Hıbban, Hakim; Huccetü'l İslam İmam Gazali, İhya'u Ulum'id-din, 3-cü cild, tərcümə edən: Dr. Sıtkı Gülle, Huzur Yayınevi, İstanbul 1998, səh. 111-112)*

Peyğəmbərimiz (s.ə.v) həyatı boyu minlərlə insanı tərbiyə etmiş, dini, gözəl əxlaqı bilməyən insanların gözəl əxlaqlı, incədüşüncəli, fədakar və üstün əxlaqlı insanlar olmasına səbəb olmuşdur. Özündən sonra da sözləri, davranışı və əxlaqı ilə milyonlarla insanın tərbiyəsinə səbəb olan mübarək Peyğəmbərimiz (s.ə.v) çox xeyirli yolgöstərən və tərbiyəçidir.

Allah`ın aləmlərə rəhmət kimi göndərdiyi Peyğəmbərimiz hz. Muhəmməd (s.ə.v) Allah`ın **"Buna görə də sən dəvət et və sənə əmr edildiyi kimi düz yolla get... (Şura surəsi, 15)"** ayəsilə də bildirdiyi kimi, insanları xəbərdar etmək üçün vəzifələndirilən son peyğəmbərdir və digər bütün elçilər kimi insanları doğru yola, Allah`a iman gətirməyə, axirət üçün yaşamağa və gözəl əxlaqa dəvət etmişdir. Bu dəvəti zamanı istifadə etdiyi metodlar, mövzuları izah etmə tərzi, üslubu və davranışlarındakı üstün keyfiyyət anlayışı hər müsəlmana nümunə olmalı, hər müsəlman insanları din əxlaqı ilə yaşamağa dəvət edərkən Peyğəmbərimiz (s.ə.v) kimi davranmağa səy göstərməlidir.

**"... Biz onlar üçün şan və şərəflərini (Zikr) gətirdik, onlar isə özlərinə verilən Zikrdən üz döndərirlər". (Muminun surəsi, 71)**





# İslamda Düşüncə Azadlığı

Üzərində yaşadığımız dünyada çox fərqli inanclara sahib insanlar vardır. Belə bir dünyada yaşayan müsəlmanlar qarşılarındakı insanın inancı nə olursa olsun, xoşrəftar olmalı, bağışlamalı, ədalətli davranmalıdırlar. İnsanları Allah`ın dininə gözəlliklə, sülh və xoşrəftarla dəvət etmək iman edənlərin üzərinə düşən bir məsuliyyətdir.

İnsanların düşüncə və həyat azadlığını təmin edən və zəmanət altına alan bir din olan İslam insanlar arasında gərginliyi, anlaşılmazlığı, bir-birlərinin haqqında mənfi danışmağı və hətta mənfi düşüncəni (zənn) qadağan edən əmrlər gətirmişdir. İslam terror və şiddət hərəkətlərinə qəti olaraq qarşı olduğu kimi, insanların üzərində ən kiçik bir təzyiq göstərilməsini belə qadağan etmişdir.

İnsanların bir dinə inanmağa və ya o dinin ibadətlərini yerinə yetirməyə məcbur edilməsi, İslamın özünə və ruhuna ziddir. Çünki İslamda səmimi iman azad iradə və vicdanla mümkündür. Əlbəttə, müsəlmanlar bir-birlərini Quranda izah edilən əxlaqi xüsusiyyətlərin tətbiq olunması üçün xəbərdar edə bilər, təşviq edə bilərlər. Quran əxlaqının ən gözəl sözlə insanlara izah edilməsi bütün iman edənlərin üzərinə düşən məsuliyyətdir. Quranda belə buyurulur:

**... Rəbbinin yoluna hikmətlə və gözəl nəsihətlə çağır...” (Nəhl surəsi, 125)**

Heç vaxt insanlar üzərində maddi və ya mənəvi təzyiq tətbiq etməzlər. Yaxud da dünyəvi bir imtiyaz tanıyıb heç kimi din əxlaqının tətbiqinə yönəltməzlər. Təbliğlərinə qarşılıq mənfi cavab aldıqlarında müsəlmanların verdikləri cavab: **“Sizin dininiz sizə, mənim dinim mənə. (Kafirun surəsi, 6)”** - şəklində olar.

Bu dünyada xristian və yəhudilərlə yanaşı, buddist, hindu, ateist, deist, bütpərəst kimi fərqli inanclara sahib insan cəmiyyətləri vardır. Belə bir dünyada yaşayan müsəlmanlar qarşılarındakı insanın inancı nə olursa



olsun, xoşrəftar olmalı, bağışlamalı, ədalətli davranmalıdırlar. İnsanları Allah`ın dininə gözəllik, sülh və xoşluqla dəvət etmək iman edənlərin üzərinə düşən məsuliyyətdir. Doğruları yerinə yetirib-yetirməmək, iman edib-etməmək qərarı qarşı tərəfə aiddir. Bir şəxsi iman etməyə məcbur etmək, bəzi şeyləri məcbur qəbul etdirməyə çalışmaq Quran əxlaqına zidd davranışdır.

İnsanların ibadət etməyə məcbur edən bir cəmiyyət modeli İslam dininə tamamilə ziddir. Çünki inanc və ibadət yalnız Allah`a yönələr və insanın öz seçimi ilə dəyər daşıyar. Əgər bir sistem insanları inanc və ibadətə məcbur edərsə, bu vəziyyətdə insanlar o sistemdən qorxduqları üçün dindar olarlar. Din baxımından məqbul olan isə vicdanların tamamilə sərbəst buraxıldığı bir mühitdə Allah rizası üçün din əxlaqının yaşanmasıdır.

## Allah günahsız insanların öldürülməsini haram etmişdir

Bir insanı günahsız yerə öldürmək Qurana görə ən böyük günahlardan biridir:

**... hər kəs bir kimsəni öldürməmiş və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kəs belə bir kimsəni diriltsə, o, bütün insanları diriltmiş kimi olur. Bizim peyğəmbərlərimiz onlara açıq möcüzələr gətirmişdilər. Bundan sonra da onların bir çoxu yer üzündə həddi aşdılar. (Maidə surəsi, 32)**

Yuxarıdakı ayədə göründüyü kimi, günahsız insanları haqsız yerə öldürən kəslər böyük bir əzabla təhdid edilmişlər. Allah tək bir adamı öldürməyin bütün insanları öldürmək qədər ağır bir günah olduğunu xəbər vermişdir. Allah`ın



sərhədlərini qoruyan bir insanın nəinki minlərlə günahsız insanı qətl etməsi, heç tək bir insana belə zərər vermə ehtimalı yoxdur.

## Allah möminlərə mərhəmətli olmalarını əmr edər

Ayələrdə müsəlman əxlaqı belə izah edilir:

**Sonra da iman gətirən və bir-birinə səbir tövsiyə edən, mərhəmət tövsiyə edən kimsələrdən olmaqdır! Onlar sağ tərəf sahibləridir! (Bələd surəsi, 17-18)**

Axirət günü qurtuluşa çatanlardan olmaları, rəhmətinə və cənnətinə qovuşa bilmələri üçün Allah`ın qullarına endirdiyi əxlaqın ən əhəmiyyətli xüsusiyyətlərindən biri ayədə göründüyü kimi, mərhəməti bir-birlərinə tövsiyə etmələridir.

Həqiqi mərhəmətin qaynağı Allah sevgisidir. İnsanın Allah`a olan sevgisi Onun yaratdığı varlıqlara qarşı səmimi olmalarına səbəb olar. Allah`ı sevən insan Onun yaratdıqlarına qarşı doğrudan bir yaxınlıq hiss edər. Özünü və bütün insanları yaradan Rəbbimizə qarşı hiss etdiyi bu güclü sevgi və bağlılığa görə, Quranda əmr edildiyi kimi, insanlara qarşı gözəl davranar. Bu gözəl əxlaqı sayəsində həqiqi mərhəmət ortaya çıxar.

Möminlərin ayələrdə təsvir edilən gözəl əxlaqları Allah`a olan dərin sevgilərindən irəli gəlir. Bu bağlılıqlarına görə də Allah`ın əmr etdiyi Quran əxlaqını tətbiq edərlər. Möminlər göstərdikləri mərhəmətə görə və etdikləri köməyə görə heç kimə minnət qoymaz və təşəkkür qədər belə qarşılıq ümid etməzlər. Onların əsl hədəfləri yaşadıqları gözəl əxlaqla Allah`ın razılığını qazanmaqdır. Çünki onlar axirət günü bu əxlaqlarına görə sorğuya çəkiləcəklərini bilirlər.



## Allah xoş üzlü olmağı və bağışlamağı əmr etmişdir

Qurani-kərimin "Əraf" surəsinin 199-cu ayəsindəki **"sən əfv yolunu mənimsə"** sözləri ilə ifadə edilən əfvedici və xoş üzlü olmaq anlayışı İslam dininin təməl qaydalarından birini əmələ gətirir.

İslam tarixinə baxdıqda, müsəlmanların Quran əxlaqının bu əhəmiyyətli xüsusiyyətini ictimai həyata necə keçirdiklərini çox açıq şəkildə görərik. Müsəlmanlar getdikləri hər yerdə azad və xoş mühit meydana gətirmişlər. Din, dil və mədəniyyət baxımından bir-birinə zidd olan xalqların eyni mühitdə sülh və əmin-amanlıq içərisində yaşamalarını təmin etmiş, özlərinə tabe olanlara sülh və əmin-amanlıq vermişlər. Böyük bir coğrafiyaya yayılan Osmanlı İmperiyasının varlığını əsrlər boyu davam etdirməsinin ən əhəmiyyətli səbəblərdən biri İslamın gətirdiyi xoş mühitin yaşanması olmuşdur. Xoşniyyətli və şəfqətli olmaları ilə tanınan müsəlmanlar həmişə öz dövrlərinin ən mərhəmətli və ən ədalətli şəxsləri olmuşlar. Bu çox millətli quruluş içərisindəki bütün etnik qruplar mənsubu olduqları dinləri azad şəkildə yaşamışlar, hətta öz dinlərinin hüququna görə haqlarına sahib olmuşlar.

Bütün bunlar İslamın insanlara məsləhət gördüyü əxlaq xüsusiyyətlərinin dünyaya sülh, dinclik və ədalət gətirəcək dəyərlər olduğunu göstərir. İndi dünya gündəliyində olan və terror adlanan barbarlıq isə Quran əxlaqından tamamilə uzaq, cahil və fanatik insanların, həqiqətdə isə dinlə heç bir əlaqəsi olmayan qatillərin əməlidir. Vəhşiliklərini din adına icra etməyə çalışan bu adamlara və qruplara qarşı tətbiq olunası mədəni həll yolu həqiqi İslam əxlaqının insanlara öyrədilməsidir.

Başqa sözlə desək, İslam dini və Quran əxlaqı terrorizmə qəti qarşıdır və yer üzünü bu bəladan qurtaracaq həll yoludur.



# "STRİNQ" NƏZƏRİYYƏSİNİN BANİSİ PROF. MİTİO KAKUNUN A9 TV-YƏ VERDİYİ XÜSUSİ MÜSAHİBƏ

Əslən yaponiyalı olan nəzəri fizik Mişio Kaku ABŞ-da doğulmuşdur. Son əsrin ən bilikli fiziklərindən olan Kakunun çox sayda kitabı, radio və televiziya proqramları var.

Elmə töhfələrilə tanınan Mişio Kaku qara dəliklər və kainatın genişlənməsinin sürətlənməsi kimi sahələrdə çoxlu tədqiqatlar aparmışdır.

Bundan əlavə, fizikanın əsas modellərindən biri olan "Strinq" (sim) nəzəriyyəsinin banilərindəndir.

M.Kaku: - Cisimlərin bərk olduğunu zənn edərək yanılırıq. Əslində, cisimlər boşdur. Bəs elə isə biz nə üçün parçalanıb yerə səpələnmirik? Nə üçün maddələr bərk halda görünür? Çünki elektronlar bir-birlərini itələyirlər. Mən, əslində, bu döşəmənin üstündə dayanmıram. Çünki elektronlar bir-birini sevmirlər. Bir-birlərini itələyirlər. Buna görə, biz maddələrin bərk olduğunu zənn edirik. Əslində, beyində heç nə yoxdur. Bərk maddələr, əslində, bərk deyil. Biz onların bərk olduğunu zənn edirik. Biz reallığın bərk olduğunu düşünürük. Lakin bu, heç də belə deyil.

Müxbir: – Elə isə biz beynimizin içində yaşayırıq.

M.Kaku: – Bəli, bir növ elədir. Güzgüyə baxdıqda, əslində, özünüzə baxmırsınız. Güzgüyə baxdıqda siz özünüzün saniyənin milyardda bir əvvəlki halınıza baxırsınız. Çünki işığın gözünüzdən güzgüyə getməsi və yenidən gözünüzə qayıtması bu qədər vaxt çəkir. Kvant mexanikasına görə, üzünüz, əslində, dalğadır. Siz, əslində, titrəyirsiniz. Bu, inanılmazdır. Ancaq biz bunu laboratoriyada ölçə bilirik. Ona görə, güzgüyə baxdıqda, əslində, özünüzə baxmırsınız.

Müxbir: - Əgər görmə, toxunma və eşitmə hissləri beynimizə elektrik impulsu kimi çatırsa, elə isə xarici aləmdə maddənin mövcud olduğuna necə əmin ola bilərik?

M.Kaku: – Beynimiz gördüklərimizdən təqribi görüntü meydana gətirir. Siz sualınızda bunu nəzərdə tutursunuz: beynimizi yanılda bilərikmi? Cavab: bəli. Lakin problem budur: reallıq saxtadırmı? Demək istədiyim budur ki, ətrafda gördüyümüz hər şey illüziyadır. Bunun reallıq olduğunu zənn edirik, əslində isə belə deyil.

Müxbir: – Holoqrafik kainat kimi bir şey ola bilərmi?

M.Kaku: – Bəlkə də biz reallıqla qeyri-reallıq arasındakı fərqi bilmirik. Biz hal-hazırda süni toxunma hissi əmələ gətirməyə başlayırıq. Buna haptik (toxunma hissi ilə əlaqədar) texnologiya deyilir. Biz bu texnologiya ilə, əslində, heç nə olmamasına baxmayaraq, süni toxunma hissini əmələ gətirə bilirik.

Müxbir: – Hal-hazırda yaşadığımız dünyadan danışaq. Biz həqiqi dünyada, yoxsa xəyal dünyasında yaşadığımızı ayırd edə bilərikmi?

M.Kaku: – Prinsip olaraq yaşadığımız dünya xəyal dünyası ola bilər. Bunun əksini sübut etmək mümkün deyil.

Müxbir: – Maddə, atomlar tamamilə qaranlıqdır, 99% boşluqdan ibarətdir. Elə isə biz 3 ölçülü bu möhtəşəm dünyanı necə görürük?
M.Kaku: – Biz illüziyadan ibarət dünyanı görürük. Bərk olduğumuzu, cisimlərə toxunduğumuzu zənn edirik. Məsələn, əslində, mən bu stulda oturmuram. Bu stuldan bir anqstrem (santimetrin yüz milyonda biri) qədər havada dururam. Çünki elektronlar eyni kvant mövqeyində dayanmağa meyilli deyillər, bir-birlərini itələyirlər. (Əllərini bir-birinə vuraraq) bəs əllərim nə üçün bir-birinin içindən keçmir? Nə üçün özümü də bərk zənn edirəm? Ona görə ki, əlimi başıma vurduqda, əslində, əlim başıma dəymir. Başıma 1 anqstrem məsafə qaldıqda əlim geri itələnir. Buna görə, cisimlərin bərk olduğunu zənn etsək də, əslində, cisimlər bərk deyil.

Müxbir: - Dediyiniz kimi, xarici dünyadan gələn elektrik impulslarını qavrayırıq. Bəs elektrik impulslarını işıq, rəng, səs, dad və qoxu kimi qavrayan varlıq nədir?

M.Kaku: – Bunu, həqiqətən də, bilmirik. Beynimizin müvafiq bölgələri səs, görüntü, qoxu kimi sizin görüntünüzü əmələ gətirirlər.

Müxbir: - Yəni beyin sadəcə elektrik impulslarından ibarətdir.

M.Kaku: – Bəli.

Müxbir: - Sizə yuxularla bağlı bir sual vermək istəyirəm. Yuxu aləmi və real dünya. Yuxularımızda reallıqda mövcud olmamasına baxmayaraq, maddənin bərkliyini, rənglərini və temperaturunu necə hiss edirik və yuxu ilə real dünya arasındakı fərq nədir?

M.Kaku: - Beyin müayinələrindən istifadə edərək insanların yuxuda olarkən nələr etdiklərini görə bilirik. Oyaq olarkən ənsə payı (görmə mərkəzi) gözdən gələn vizual impulslara cavab verir. Yuxu zamanı da beyinin eyni bölgəsi aktivləşir. Deməli, beyin arxada-ənsə payında xəyali görüntülər əmələ gətirir.

Müxbir: - Beynimizdən kənarda maddənin mövcud olduğuna əmin ola bilərikmi? Məsələn, mən bu mikrofona toxunuram, beynimdən kənarda bu mikrofonun mövcud olduğuna necə əmin ola bilərəm? Çünki ona toxunuram, onu görürəm. Hər şeyi eşidirəm, ancaq sadəcə beynimin içindəki elektrik impulsu kimi.

M.Kaku: - Solipsizm adlanan bir fəlsəfə var. Bu fəlsəfənin əsas sualı belədir: meşədə qırılan bir ağac, əgər orada heç kim yoxdursa, həqiqətən, qırılırmı? Bir solipsist dünyanın xəyal olduğunu, bizim bu xəyalın bir hissəsi olduğumuzu deyir. Əslində, ağacların qırılıb-qırılmadığını bilə bilmərik. Artıq kvant nəzəriyyəsi də var ki, solipsizmdən də qəribədir. Kvant nəzəriyyəsinə əsasən, siz ağaca baxmazdan əvvəl ağac dik vəziyyətdə, qırılmış, diş çöpü formasında, yanmış halda, ev şəklində və ya nə istəyirsinizsə, ola bilər. Ancaq baxdıqda ağaca çevrilir. Kvant nəzəriyyəsinin Bor şərhinə əsasən, bir şeyin müşahidə müddəti onun varlığını müəyyən edir ki, bu solipsizmdən də "pis"dir. Əgər məsələ Şrödingerin pişiyidirsə, Şrödingerin pişiyi elmlərdəki bütün paradoksların ən dərinidir. Bir pişiyi qutuya qoysam (və qutuda pişiyi zəhərləmə ehtimalı 50% olan bir zəhər olarsa), bu pişik canlıdır, yoxsa canlı deyil? Kvant mexanikasında pişiyinin cansız halının dalğa funksiyasını alırıq, canlı halının dalğa funksiyasına əlavə edirik. Problem bundadır ki, pişik nə canlı, nə də cansızdır, ikisinin arasındadır. Pişiyin canlı və ya cansız olduğunu necə anlaya bilərsiniz? Qutunu açıb baxarsınız. Ancaq bu müşahidə tələb edir. Müşahidə ilə bərabər şüur da gəlir. Şüur da bir növ varlıq deməkdir.



Müxbir: - “Matriks” filminə baxmısınızmı?

M.Kaku: - Bəli.

Müxbir: - Bu filmin fəlsəfəsi haqqında nə düşünürsünüz?

M.Kaku: - Məncə fəlsəfi və elmi cəhətdən demək olar ki, “Matriks” kimi bir dünya əmələ gətirə bilərik. Bu gün ətrafımızdakı cisimləri birbaşa idarə edəcək şəkildə beyindən istifadə edə bilirik. Ancaq beynimizin içinə xatirələri qoya bilmərik. Bunu hələ edə bilmirik.

Müxbir: - Həmin filmdə bir sual var idi. Filmdəki bir obraz: “Əgər yuxu görürüksə və əgər oyana bilmiriksə, o anda yuxu görüb-görmədiyimizə necə əmin ola bilərik?” - deyə sual vermişdi.

M.Kaku: - Əmin ola bilməzsiniz.

Müxbir: - Siz beyinin bir kompyuter, əla bir kompyuter kimi olduğunu deyirsiniz, ancaq beyin canlı toxumadan, ətdən ibarətdir. Canlı toxumadan, yəni ətdən olan maddə necə kompyuter ola bilər?

M.Kaku: - Hard disk deyil, canlı, nəm cisim.

Müxbir: - Bəs canlı bir toxumadan, yəni ətdən olan bir maddə kompyuter kimi ola bilərmi?

M.Kaku: - Əgər neyronların bir-birinə birləşdiyi kimi, tranzistorları bir-birinə birləşdirib beyin modelini çıxarsaq, beyinin nə boyda kompyuter olacağını müəyyən edə bilərik. Bu kompyuter minlərlə meqavattlıq enerji sərf edərdi. Bu enerjinin əldə edilməsi üçün nüvə elektrik stansiyası lazım olardı. Eyni zamanda, çox isti olardı, çünki elektrik hasil edir. Bu kompyuteri soyutmaq üçün bir çaya ehtiyacımız olardı. Əgər kiçik şəhər böyüklüyündə kompyuterim olsaydı, çaydan gələn su və bu nəhəng kompyuterə enerji hasil edən nüvə elektrik stansiyası... Bunların hamısı birlikdə bir beyin olardı. Ancaq beynimiz minlərlə meqavatt enerji sərf etmir. Sadəcə 20 vatlıq enerji sərf edir. Bir şəhər böyüklüyündə də deyil, sadəcə (əli ilə beyinin ölçüsünü göstərir) bu böyüklükdədir. Bu, necə mümkün olur? Əvvəla, beyin kompyuter deyil. Əvvəllər beyini kompyuter kimi təsəvvür edirdik, ancaq artıq belə düşünmürük. Beyində nə pəncərələr (Windows), nə pentium çiplər, nə proqramlaşdırma, nə də alt proqramlar var. Bəs elə isə beyin necə işləyir? Beyin öyrənmə cihazıdır. Beyin öyrəndiyi hər mövzudan sonra özünü tənzimləyir. Rəqəmsal kompyuterlərin belə edə bilmədiyini beyin edir. Bu gün noutbuklarınız dünən olduğu kimi yenə axmaqdır, hətta bir gün əvvəlki kimi axmaqdır. Noutbuklarınız əsla daha da zəkalı ola bilməz. Lakin beyniniz bunun hamısını edir və daima yeni şeylər öyrənir. Bu cəhətdən beyin tam mənada kompyuter deyil. Beyinin sistemi tamamilə fərqlidir. Ona görə, kompyuter beyin kimi olmaq üçün ancaq bir şəhər böyüklüyündə olmalıdır.

# 10 MİN İL ƏVVƏL PROFESSİONAL ÜSULLARLA DİŞ MÜALİCƏLƏRİ VƏ BEYİN ƏMƏLİYYATLARI APARILIRDI



Pakistanda aparılan qazıntı işləri 8 min il əvvəl stomatoloqların diş çürümələrini plombla müalicə etdiklərini göstərmişdir. Kolumbiya Universitetinin arxeoloqu Andrea Cucina Pakistanda apardığı qazıntı işlərində bundan 8-9 min il əvvələ aid kəsici dişlərdə kiçik dəliklər aşkar etdi. Təxminən 2.5 mm diametrlik kiçik dəliklərin müntəzəmliyi Cucinanın araşdırmalarını dərinləşdirməsinə səbəb oldu. Elektron mikroskopları vasitəsilə aparılan araşdırmalar kiçik dəliklərin bakteriyaların meydana gətirə bilməyəcəyi qədər düz olduqlarını ortaya qoydu. Bunların şüurlu müdaxilə ilə, müalicə məqsədilə edildiyi müəyyən edildi. Kiçik dəliklərin tapıldığı dişlərin heç birində heç bir çürüyə rast gəlinməmişdir. New Scientist jurnalında dərc olunan məqalədə belə deyilir: "Bu, qədim stomatoloqların işlərində nə qədər müvəffəqiyyətli olduqlarının bir dəlilidir". Philip Cohen, "Open Wide," New Scientist, N 2286, 14 Aprel 2001, s. 19

Arxeoloji qazıntılarda bu tarixdən əvvəl, təxminən 12-13 min il əvvəl edilmiş beyin əməliyyatlarının izinə də rast gəlinmişdir. Anadoluda ən qədim əməliyyatlı kəllə Aşıklıhöyükdə (Aksaray) tapılmışdır. Təxminən 12 min illik 20-25 yaşlarında bir qadın kəlləsində düz şəkildə açılmış bir dəliyə rast gəlinmişdir. Kəllədəki dəliyin düzgünlüyü və nəzərə çarpan yaxşılaşma izləri bu insanın əməliyyatdan sonra da yaşadığını göstərmişdir.

Anadoluda olan bir başqa nümunədə də kəllənin breqma (alın sümüyü ilə hər iki yan baş sümüyün birləşdiyi yer) nayihəsində aparılan əməliyyatda 13 kiçik dəlik açılaraq ellips şəklində bir hissə çıxarılmışdır. Çıxarılan hissə əməliyyatdan sonra yenidən həmin nahiyəyə qoyulmuşdur. Bu da əməliyyatın müalicə məqsədilə edildiyini göstərir. Bu əməliyyatlarda obsidian (vulkanik şüşə növü), çaxmaq daşı, mis, dəmir, gümüş kimi mədənlərdə istifadə edilən trepan alətlərindən istifadə edilmişdir. Bundan əlavə, arxeoloji qazıntılarda dərman qabı, küret (infeksiyalı dərilərin qazılmasında) kimi istifadə edilən qaşıqlar, qulaq içindəki yaraların, xarici cisimlərin təmizlənməsində istifadə edilən alətlər, maqqaş, bisturi, bıçaq, dağlama alətləri, məlhəmlər və iynələr kimi müxtəlif tibbi vəsaitlər də tapılmışdır. (Bilim ve Teknik dergisi, Mayıs 2008)

Təkamülçülərin dünyagörüşünə görə, bu dövr insanların meymunlardan hələ təzəcə ayrıldıqları, primitiv şəraitdə yaşadıqları bir dövrdür. Təkamülçülərə görə, bu cür primitiv şəraitdə yaşayan insanların heç bir texnologiya olmadan, bəzi daş alətlərlə kəllədə dəlik açıb əməliyyat aparmaları, dişlərdə dəliklər açıb plomblar qoymaları bir müəmmadır. Aydındır ki, beyin əməliyyatları aparan, dişləri müalicə edən insanlar nə primitiv idilər, nə də primitiv şəraitdə yaşayırdılar. Əksinə, xəstəliyə diaqnoz qoyan, müalicə üsulları ortaya qoyan düşüncəyə və bu üsulları müvəffəqiyyətlə tətbiq edən texniki imkanlara sahib idilər. Bu da bir daha darvinistlərin cəmiyyətlərin bəsitlikdən müasirliyə doğru təkmilləşdiyi yanılmasını əsassız edir.

# ALLAH'A QULLUQDA VƏ SƏMİMİLİKDƏ QƏTİYYƏTLİ OLMAQ

Qətiyyət işə davamiyyətli yanaşmaq, nəticə əldə etmək üçün bütün əngəlləri aşmaq və səy göstərib lazımi şeyləri mütləq yerinə yetirmək deməkdir. Yuxarıdakı ayədə də bu nəzərdə tutulur. Uca Allah (c.c.) iman gətirən qullarına təkcə ibadət etməyi deyil, eyni zamanda, ibadətdə qətiyyətli olmağı bildirmişdir. İbadətdə qətiyyətli olmaq isə təkcə feli ibadətlərə deyil, uca Rəbbimizin Quranda bildirdiyi kimi gözəl əxlaqlı davranmağa da aiddir. Çünki insanların qul kimi Allah (c.c.) üçün etdikləri hər hərəkət, dedikləri hər söz, hər davranış və rəftar ibadətdir. Ona görə, namaz bir mömin üçün necə mühüm fərz olan ibadətdirsə, eyni şəkildə, qəzəbini boğmaq, gözəl söz demək, insanlara haqq yolu göstərmək və onları xəbərdar edib qorxutmaq, sui-zənn etməmək və ya mübahisəçi olmamaq da ibadətdir.

Bununla yanaşı, Quranda möminlərin ibadətdə qətiyyətli olmaq üçün iradə və səbirləri müxtəlif çətinlik və imtahanlarla sınanacağı da bildirilmişdir. Keçmişdə yaşayan müsəlmanların və peyğəmbərlərin həyatından verilən nümunələrlə möminlərin imanlarının və qətiyyətlərinin tez-tez sınandığı xəbər verilmişdir. Çünki bu cür anlar müsəlmanların uca Rəbbimizə olan bağlılıqlarını və sədaqətlərini göstərəcəkləri çox dəyərli fürsətlərdir.

İman gətirməyən insanların söz və ya feli təzyiqi, müsəlmanlara iftira atılması, xəstəlik, aclıq, susuzluq, yorğunluq kimi sıxıntılar, çətinlik və təhlükələrlə mübarizə, möminlərdən mallarını və canlarını fəda etməyi tələb edən vəziyyətlər bu mühüm imtahanlardan bəziləridir. Bu hallarda müsəlmanlar Quran əxlaqına uyğun yaşamaqda və Quran əxlaqını təbliğ etməkdə səbir və qətiyyət göstərməlidirlər.

Bir də Allah'ın nemət olaraq bolluq-bərəkət, sağlamlıq, əmin-amanlıq, zənginlik və ya iqtidar bəxş etdiyi vəziyyətlər var ki, bu zamanlar da möminlərin Rəbbimizə olan bağlılıqlarında qətiyyət göstərməsini tələb edən müxtəlif imtahan vasitələridir. Ona görə, müsəlmanlar həm çətinliklə, həm də asanlıqla sınanırlar. Hər iki halda da müsəlmanların davranışında mənfi dəyişiklik baş verməməlidir.



Mömin hər cür şəraitdə imanda, təvəkküldə, Allah'a (c.c.) sədaqətdə qətiyyətli davranaraq Allah'a (c.c.) olan sevgisini və bağlılığını göstərməklə məsuldur.

Tarix boyu göndərilmiş bütün peyğəmbərlər, elçilər və onlarla birlikdə haqq uğrunda mübarizə aparan səmimi möminlər həyatlarının sonuna qədər xeyirli işlərdə və gözəl əxlaqda qətiyyətli olmuşlar. Quranda nümunə göstərilən bu peyğəmbərlərin və onlarla birlikdə olan əməlisaleh insanların əxlaqlarını nümunə götürmək, onlar kimi kamil olmaq üçün xeyir işlərdə yarışmaq bütün müsəlmanların üzərinə düşən məsuliyyətdir.

Şeyxül-əkbər Muhyiddin İbn Ərəbi həzrətləri möminlərin hər cür şəraitdə gözəl əxlaqdan əsla əl çəkməmələrini, gözəl əxlaqın axirətdəki qarşılığını Peyğəmbərimizin (s.ə.v) hədislərindən misal çəkərək belə açıqlamışdır:

*«Gözəl əxlaqdan ayrılma! Ən gözəl xasiyyəti mənimsə və o cür davran. Pis əxlaqdan uzaq dur. Çünki Peyğəmbər (s.ə.v) belə buyurur: "Mən ancaq gözəl əxlaqı tamamlamaq üçün göndərilmişəm". Yuxarıdakı hədisdən göründüyü kimi, Allah Rəsulu əxlaqını gözəlləşdirən insana cənnətin ən yüksək yerində bir sarayının olacağını bildirmişdir».* (Muhyiddin İbn-i Arabi, Fütühat-ı Mekki'den-İbni Arabi, Altın Sahifeler, səh. 74-75, Pamuk yayıncılık)

# Darvinistlərin "Neandertallar insanın meymunabənzər əcdadıdır" İddiası Saxtakarlıqdır



Neandertal adamı 1856-cı ildə Almaniyanın Düsseldorf şəhəri yaxınlığındakı Neander dərəsində tapılan fosillərlə elmi ədəbiyyata daxil oldu. Kəllə və bədənindəki sümüklərdə yerləşən qıvrımlar fosillərin təkamülçülər tərəfindən "ibtidai insan növü" kimi dəyərləndirilməsinə səbəb oldu.

1908-ci ildə Fransanın La Şapel-o-San (La Chapelle-aux-Saints) ərazisində Neandertal adamına aid olduğu bildirilən, demək olar ki, tam, qüsursuz skelet tapıldı. Sümüklər dövrün məşhur paleontoloq və geoloqu Marselin Bul tərəfindən birləşdirildi.

Bu birləşdirmə nəticəsində ortaya çıxan Neandertal adamı əyri duruşa, irəliyə doğru qabarıq kəlləyə malik idi. Bundan əlavə, ayaqları da oynaq hissədə bitişik idi, tam düz duruşa imkan vermirdi.

Bu görünüş sayəsində Neandertal adamı insanların zehinlərində ibtidai canlı kimi qaldı. Neandertal saxta rəsmlərdə də ibtidai meymun adamlar kimi göstərildilər.

Neandertal haqqındakı bu səhv fikir 100 ilə qədər davam etdi. Lakin 1950-ci ildə la Şapel skeleti üzərində aparılan təhlillər skeletin sahibi olan Neandertal adamında bir növ oynaq infeksiyasının olduğunu müəyyən etdi. Əslində, sağlam fərdlər normal insan kimi yeriyə bilirdi.
1985-ci ildə eyni skelet Erik Trinkhaus adlı antropoloq tərəfindən təhlil edildi. Bu təhlil neandertalların dik yeridiyini təsdiqləməklə bərabər o vaxta qədər gizli qalmış bir həqiqəti də üzə çıxardı: Marselin Bul Neandertalı qəsdən əyri göstərmişdi. 1950-ci ildə müəyyən edilən oynaq xəstəliyi canlının dik yeriməsinə mane olmurdu. Beləliklə, darvinist Bul Neandertalın əsl insan kimi dik yeriməsini qəbul etmək istəməmişdi.

E.Trinkhaus və V.V. Houels "Scientific American" jurnalına verdikləri müsahibədə bu barədə belə deyirlər:

Bu gün bir çox elm adamı Neandertal insanının tamamilə dik şəkildə ayaq üstə durması və xəstəlik olmadığı şərtlərdə xüsusiyyətlərinin dövrümüzdəki insandan heç bir fərqi olmadığı haqqında həmfikirdirlər.

Digər tərəfdən neandertalların kəllə həcminin böyüklüyü də təkamülçüləri bu məsələdə ziddiyyətli vəziyyətə saldı. Bunun səbəbi isə neandertalların kəllə həcminin 1700 sm3 yaxın olması idi. Bu rəqəm dövrümüzdəki insanınkindən 200 sm3 daha böyükdür. Homo sapiensdən böyük kəlləyə malik olan neandertalların təkamül cəhətdən "ibtidai" növ olması nəzəriyyə üçün böyük təzaddır.

Neandertal mütəxəssisi Erik Trinkhaus bu növ ilə bağlı həqiqəti belə etiraf etmişdir:

Neandertalların anatomiyasında və ya hərəkət, alətdən istifadə, zəka səviyyəsi və danışma qabiliyyəti kimi xüsusiyyətlərində




müasir insandan aşağı hesab ediləcək heç bir şey yoxdur.

Şübhəsiz, neandertallar bir insan irqi olduqları üçün dövrümüzün irqləri ilə eyni xüsusiyyətlərə malikdirlər. Neandertal insanı bacarıqlı alət hazırlayan və mahir ovçu idi. Hətta musiqi və incəsənətlə də məşğul olurdu. Eynilə dövrümüzdəki cəmiyyətdəki kimi mədəni və sosial səviyyəsi vardı, dini inancları vardı. Beləliklə, neandertalların qurduqları sivilizasiya dövrümüzdəki sivilizasiyalardan çox da fərqli deyildi.

Neandertallarla bağlı darvinistləri çıxılmaz vəziyyətdə qoyan digər məsələ isə zaman problemidir. Tapılan fosillər neandertallarla dövrümüzdəki insanın eyni zamanda yaşadığını, hətta fərqli şəraitlərdə daha sonra da yaşadığını göstərir. Kaliforniya Universitetindən təkamülçü bioloq Fransisko C. Ayala bu vəziyyəti belə etiraf edir:

Neandertalların anatomik cəhətdən müasir insanların əcdadı olduğu hesab edilirdi, amma indi müasir insanların ən azı 100.000 il əvvəl yaşadığını bilirik, Neandertal fosillərinin aradan çıxmasından daha əvvəl Orta şərqdəki mağaralarda anatomik cəhətdən müasir insanların fosillərinin həm neandertalları təqib etməsi, həm də onlardan əvvəl gəlməsi təəccüblüdür. Bu mağaralardakı bəzi müasir insanlar 120.000-100.000 il əvvələ aiddirlər, neandertallar isə 60.000-70.000 illikdirlər; müasir insanlardan 40.000 il sonra gəlirlər. İki formanın başqa ərazilərdən köçərək yenidən bir-birlərinin yerinə keçdikləri, yoxsa birlikdə olduqları və ya hibridləşmənin (məlazləmənin) olduğu məlum deyil.

Beləliklə, insanın "meymunabənzər əcdadı" kimi göstərilməyə çalışılan neandertallar nəsli kəsilmiş insan irqidir. Dövrümüzdəki insanların öz irqlərinə xas olan fərqli xüsusiyyətlər daşıması kimi, bu növ də ancaq fərqli irq xüsusiyyətlərinə malikdir. Bu xüsusiyyətlərin təkamülə dəlil kimi istifadə edilməsi böyük saxtakarlıqdır. Belə ki, neandertal adamı fosili 1978-ci ildə elmi ədəbiyyatdan çıxarılmışdır. Ancaq neandertallar hələ də təkamülün böyük dəlili kimi darvinist mənbələrdə verilir.

Dövrümüzdə neandertal adamı ilə bağlı fərziyyələrin hələ də bəzi təkamülçü KİV-lərində davam etdirilməsindəki məqsəd neandertallarla bağlı həqiqətləri bilməyən, bu saxta ara-keçid formanın elmi baxımdan ləvğ olunduğundan xəbəri olmayan insanlara təsir etmək, onları aldatmaqdır. Elə bu səbəbdən, australopithecuslar və neandertallarla bağlı həqiqətlərin hər fürsət düşdükdə gündəliyə gətirilməsi və darvinist yalana son verilməsi böyük əhəmiyyət daşıyır.

# Fosillər Təkamülü TƏKZİB EDİR



**ZEBRA KƏLLƏ SÜMÜYÜ**

YAŞ: 4.5 milyon il
DÖVR: Pliosen
TAPILDIĞI YER: Qan Su, Çin

Bu canlı yaradılmış bütün canlılar kimi milyon illərdir heç bir dəyişikliyə məruz qalmamışdır. Allah bütün canlıları heç dəyişmədən mühafizə etmişdir. Bu da təkamül prosesinin baş vermədiyini və bütün canlıları uca Allah’ın yaratdığını sübut edir.



**YAQUAR KƏLLƏ SÜMÜYÜ**

YAŞ: 87 milyon il
DÖVR: Təbaşir
TAPILDIĞI YER: Şan Donq, Çin

Darvinin insanlarla meymunların ortaq əcdaddan gəldiyini iddia etdiyi tezisi ilk dəfə irəli sürüldüyü dövrdə də, sonrakı dövrlərdə də elmi tapıntılarla dəstəklənməyib. O zamandan bəri təqribən 150 ildir ki, insanın təkamülü nağılını dəstəkləmək üçün göstərilən bütün cəhdlər nəticəsiz qalıb.

Əldə edilən fosillər meymunların həmişə meymun, insanların da həmişə insan kimi mövcud olduğunu, meymunların insanlara çevrilmədiyini və meymunla insanın ortaq əcdada malik olmadığını sübut edib. Fosil qeydlərinin ümidlərini puç etdiyinə və heç bir dəlil tapmadıqlarına görə təkamülçülər reallığı əks etdirməyən kəllə sümüklərini təkrar-təkrar sıralayır, saxtalığı çoxdan ifşa edilmiş fosillər üzərində fərziyyələr uydururlar. Ancaq şəkildəki 87 milyon illik yaquar kəllə sümüyü fosili kimi fosillər onların uydurmalarını əsassız edir.

## Kəhraba nədir?

Fosillərin mühafizə edildiyi mühitlərdən biri də kəhrəbaların içidir. Ağaclardan çıxan maye kəhrəbanın canlının üstünə axıb bərkiməsi və canlının o şəkildə mühafizə edilməsi ilə əmələ gələn kəhrəba içindəki fosillər tapılan digər fosillər kimi çox mühüm həqiqəti göstərir: canlılar milyon illərdir heç bir dəyişikliyə məruz qalmayıb, yəni əsla təkamül keçirməyiblər.